EVDƏ QAL, SAĞLAM QAL!

"Siz bir daha sübut etdiniz ki, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz"



Bax 8

Sahibə Qafarova: "Bəladan ən qısa müddətdə xilas olmaq üçün..."



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 093 (6058) 5 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "İndiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb"

*Prezident İlham Əliyev indiki Ermənistanın əzəli Azərbaycan torpaqlarında yaradıldığını bir daha tarixi faktlarla bəyan etdi*



Bax 2

## Baş Nazir: "Görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın həyatının qorunmasıdır"



*Azərbaycan Respublikasının Baş Naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir...*

Bax 4

## "Tallison "Neftçi"nin təklifindən heç cür imtina edə bilməzdi"

*Braziliyanın "Quarani" klubunun baş menecer Mişel Alves müdafiəçi Tallison Auqustonun "Neftçi"yə transferi haqda danışıb. Belə ki, klub rəsmisi "Correio"ya açıqlamasında 29 yaşlı müdafiəçinin Azərbaycandan cəlbedici təklif aldığını deyib: "O, heç cür bundan imtina edə...*



Bax 16

## Hande Harmancı: "Tətbiq olunan sərt karantin qaydaları 10-14 gün ərzində yoluxma sayında azalmaya səbəb olacaq"



Bax 4

Avropada 2 milyondan çox insan COVID-19-a yoluxub, onlardan 180 mindən çoxu vəfat edib. Son vaxtlar qitədə yoluxanların sayı azalıb. AZƏRTAC-ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Ümumdünya Səhiyyə Təşkilatının ...

## COVID-19-a yoluxan Paşinyan niyə Rusiyadan qaçır?

*"Paşinyanın reytinqi çox aşağıdır, onun insanlarla ünsiyyət qurmaq üçün mövzusu yoxdur və belə olduqda Paşinyan hər bir fürsətdən istifadə edərək publik səhnədən aralanmağa macal tapır"....*



Bax 13

"Hər birimiz bu məsələyə fərdi olaraq həssas yanaşmalıyıq"



Bax 7

YAP İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib



Bax 4

Etibar Məmmədov özünü nədə günahlandırdı?



Bax 14

# “İndiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb”

*Prezident İlham Əliyev indiki Ermənistanın əzəli Azərbaycan torpaqlarında yaradıldığını bir daha tarixi faktlarla bəyan etdi*



## Rəsmi xronika

Prezident İlham Əliyev “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ağcabədi rayonunun Sarıcalı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən dövlətimizin başçısı Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

E.Əhmədov deyib: “Dövlətimizin başçısı tarixi faktlara əsaslanaraq bildirdi ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən erməni əhalisinin kütləvi şəkildə köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Mənbələr təsdiq edir ki, ermənilər Cənubi Qafqaza mərhələlərlə məqsədyönlü şəkildə köçürülmüşlər. XIX əsrin əvvəllərində - 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla çar Rusiyasının Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında Kürəkçay müqaviləsi (“Andlı öhdəlik”) imzalanmışdı. Həqiqətən də bu fakt və müqavilənin maddələri onu deməyə əsas verir ki, əgər ermənilər Qarabağ xanlığında yaşayıb vəzifə sahibi olsaydılar, general Sisianovla müqavilə Qarabağ xanı İbrahim xanla imzalanmazdı. Bunun ardınca, 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artdı. Bunu Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədlər də təsdiq edir.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonuna səfəri zamanı Ermənistanın əsassız ərazi iddialarını və ermənilərin Cənubi Qafqaza, xüsusilə Azərbaycan torpaqlarına XIX əsrin əvvəllərində məqsədyönlü şəkildə köçürüldüyünü bir daha diqqətə çatdırdı. Dövlət başçısı tarixi faktlarla bir daha qeyd etdi ki, ermənilər bizim torpağımıza, o cümlədən tarixi ərazilərimizə XIX əsrin əvvəllərində köçürülüblər və indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb: “Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli, 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır”.

Prezident İlham Əliyev bu mühüm və danılmaz faktı bütün çıxışlarında ictimaiyyətin diqqətinə çatdırır. Qeyd etmək lazımdır ki, ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri - Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlər salınmışdı. Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər 1828-ci ildən 150 il sonra, yəni, 1978-ci ildə sovet dövründə, Ağdərə rayonunda həmin köçürülmənin şərəfinə abidə ucaltmış (abidənin üzərində ermənicə “Marağa-150” sözləri yazılmışdı), lakin XX əsrin 80-ci illərinin sonunda, yəni, Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman həmin abidəni özləri məqsədyönlü şəkildə dağıtmışlar.

Eyni zamanda, dövlət başçısı bildirdi ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb: “Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?”.

Həqiqətən də Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsi nəticəsində Azərbaycan torpaqlarında - keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası quruldu. Qeyd etmək vacibdir ki, Ermənistanda azərbaycanlıların tarixən yaşadıqları ərazi respublikanın ümumi ərazisinin (29, 8 min kv.km.) 25 faizini, yaxud təqribən 7,5 min kv.km. təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv.km.) təqribən 3 min kv.km. artıqdır.

Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-ə daxil etməyə nail oldular. Bununla da Naxçıvanın Azərbaycandan ayrı salınması və quru əlaqələrin kəsilməsi baş vermişdir. Sonrakı dövrlərdə isə ermənilər Ermənistana verilmiş Zəngəzurda və digər ərazilərdə də tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Prezident ilham Əliyev bildirdi ki, mərhələlərlə indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələri yer üzündən silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik respublika yaradılmışdır. Dövlət başçısı bir daha diqqətə çatdırdı ki, Azərbaycan ilə Türkiyəyə qarşı açıq şəkildə, Ermənistanın əsassız ərazi iddiaları var. Baxmayaraq ki, onlar bizim tarixi torpağımızda yaşayırlar. Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir: “İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün”.

**Ardı Səh. 3**

# “İndiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb”

*Prezident İlham Əliyev indiki Ermənistanın əzəli Azərbaycan torpaqlarında yaradıldığını bir daha tarixi faktlarla bəyan etdi*

**Əvvəli Səh. 2**

Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətlərin ortaya qoyulmalı olduğunu vurğulayaraq bildirib ki, XX əsrin əvvəllərində rus imperiyası tərəfindən dərc edilmiş xəritələrdə indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir: “Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm”.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistan təbliğatına və ümumiyyətlə, münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Sonuncu, qondarma “prezident və parlament seçkiləri”nin keçirilməsi isə münaqişənin nizama salınmasında 28 ildir vasitəçilik edən ATƏT-in Minsk qrupu daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlar (NATO, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa parlamenti, İƏT, GUAM və s.) və dövlətlər tərəfindən qanunazidd hərəkət kimi qiymətləndirilib və tanınmayıb. Prezident İlham Əliyev diqqətə çatdırdı ki, bütün bu təşkilatlar bu “seçkiləri” tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir: “Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür”.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində Azərbaycan dövləti, ilk növbədə, sülh variantına üstünlük verir. Lakin Azərbaycan Prezidenti xalqımızın və dövlətimizin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüququn normaları ilə təsdiq edildiyini vurğulayıb. Münaqişə həll olunmadan, yəni, Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı ölkəmizin öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib.

Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri dünyaya çatdırmalı olduğumuzu vurğulayaraq qeyd edib ki, tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Azərbaycanın arqumentlərinə qarşı Ermənistan tərəfinin heç bir ciddi arqument qoya bilmədiyini, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiyaya əsaslandığını bildirən dövlət başçısı qeyd edib ki, bu, əslində, onların xislətidir və onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar, bu da heç kimə sirr deyil.

Bu baxımdan, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün təşkilatlarda fəal olmağımızı, hücum diplomatiyası aparmağımızı bildirərək qeyd edib ki, Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi, çünki onların bütün tarixi saxtakarlıqdır, eləcə də onlar tarixi Azərbaycan torpağında dövlət qurublar və indi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər. Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Ermənistan baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçərək bildirdi: “Erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!”



# Operativ Qərargah: Xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərara alınıb

Hazırda dünyada 7 milyonadək insan yeni növ koronavirus (COVID-19) xəstəliyinə yoluxmuş, 400 minədək şəxs vəfat etmişdir. COVID-19 virusunun peyvəndi bu günədək tapılmadığından dünya dövlətləri tərəfindən davamlı preventiv tədbirlər həyata keçirilməkdədir.

Son günlər mövcud karantin rejimi qaydalarının əhali tərəfindən kütləvi surətdə pozulması ölkənin bir sıra bölgələrində sanitar-epidemioloji vəziyyətə ciddi təsir göstərmiş, virusa yoluxanların sayı artmışdır. COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərara alınmışdır.

Bununla əlaqədar olaraq, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkəti istisna olmaqla).

Qeyd olunan tarixdə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir. Sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər. 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:

X Siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;

X xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;

X sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;

X kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

X elektrik enerjisinin istehsalı və təchizatı;

X meliorasiya və su təsərrüfatı;

X rabitə xidmətləri;

X teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;

X dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;

X boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;

X fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);

X neft və qazın hasilatı, emalı, saxlanması və satışı;

X fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin və xidməti avtomobillərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra yol veriləcək.

Eyni zamanda dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçiləri məhdud sayda cəlb etməklə tənzimlənəcəkdir.

2020-ci il 5 iyun tarixində Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində dövlət orqanları və qurumları üçün saat 14:00-dək qısaldılmış iş rejimi müəyyən edilib.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır. Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə sosial məsuliyyətdən irəli gələrək həmrəylik nümayiş etdirməyə, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl etməyə, özlərinin və yaxınlarının sağlamlığını qorumağa çağırırıq.

# Sahibə Qafarova: “Bəladan ən qısa müddətdə xilas olmaq üçün...”



Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova ölkə əhalisinə müraciət edib. SİA xəbər verir ki, müraciətdə deyilir: “Əziz və hörmətli həmvətənlərim!

Bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusa və bu virusun millətimizin hər bir fərdi üçün yaratdığı hədələrə qarşı hərtərəfli mübarizə aparılır. 2020-ci fevral ayından başlayaraq ölkəmizdə görülməyə başlanan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlətin bütün gərəkli qurumları səfərbər olmuşdur. Cənab Prezident bu virusun ölkəmizə verə biləcəyi zərəri minimuma endirmək üçün ciddi siyasi iradə ortaya qoymuş və effektiv tənzimləmə mexanizminin formalaşdırılması üçün müvafiq göstərişlər vermişdir. Görülmüş tədbirlər müsbət nəticələr versə də, aprelin 27-dən xüsusi karantinin rejiminin mərhələli şəkildə yumşaldılması və təəssüflər olsun ki, müəyyən olunmuş qaydalara və təcrid tövsiyyələrinə riayət edilməməsi son günlər infeksiyaya yoluxanların sayının kəskin artması ilə nəticələnmişdir. Buna görə də Operativ Qərargahın qərarı ilə 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaqdır”.

Qərarda göstərilən tələblərə riayət edilməsinin mütləq olmasını nəzərə alaraq, hər bir həmvətənimdən bir ana, bir azərbaycanlı və Milli Məclisin Sədri olaraq xahiş edirəm: millətimizin bu bəladan ən qısa müddətdə xilas olması üçün üzərinizə düşən mühüm missiyanı yerinə yetirin - qoyulmuş tələblərə və verilmiş tövsiyyələrə riayət edin, özünüzü, ailə fərdlərinizi və yaxınlarınızı, həmçinin ətrafınızda olan insanları düşünün və bu bəlanın daha geniş vüsət almasına imkan yaratmayın. Unutmayaq ki, görülən bütün bu tədbirlərin ali məqsədi siz əziz həmvətənlərimizin sağlamlığının və həyatının qorunmasıdır”

# Baş Nazir: "Görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın həyatının qorunmasıdır"



***Azərbaycan Respublikasının Baş Naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***

"Hörmətli həmvətənlər!

Məlum olduğu kimi, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən ilk günlərdən təxirəsalınmaz və qətiyyətli tədbirlər görülüb və görülməkdədir. Profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan etmişdir, kütləvi tədbirlər ləğv edildi, ölkəmizin quru sərhədləri bağlanıldı, şəhər və rayonlararası gediş-gəliş dayandırıldı. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirildi. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülüb və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır.

Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən Operativ Qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır.

Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah bu gün qərar qəbul edib. Qərara əsasən 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq. Qərarda göstərilən tələblərə riayət olunması məcburidir və mütləqdir. Xəstəliyin yoluxma hallarının digər şəhər və bölgələrə artacağı hallarda sərt tədbirlər gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacaqdır.

Qərarın icra olunmasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdur. Sonda bir daha bildirmək istəyirəm ki, görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır".




# YAP İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib

***İyunun 4-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasda pamdemiya ilə əlaqədar Yeni Azərbaycan Partiyasının gördüyü işlər barəsində məlumat dinlənildi. Qeyd edildi ki, Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilib.***

Görülən tədbirlər sırasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir. Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə yaxından və fəal iştirak etmiş, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirmişdir. Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bütövlükdə 500 000 manat, Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fonduna isə 30 000 manat ianə etmişdir.

Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ayrılmış ərzaq yardımları YAP-ın könüllüləri tərəfindən 33355 imkansız ailəyə çatdırmışdır.

Yeni Azərbaycan Partiyası tərəfindən 21-29 mart tarixlərində "Sağlamlığımız milli həmrəyliyimizdədir" devizi ilə keçirilən kampaniya çərçivəsində bütün respublika ərazisində ahıl, imkansız və ehtiyacı olan 7780 ailəyə könüllülər vasitəsilə gigiyenik vasitələr çatdırılmışdır.

YAP tərəfindən aprel ayının 4-də start verilmiş və xüsusi karantin rejiminin tətbiq olunduğu dövr ərzində davam edən aksiya çərçivəsində partiyanın rayon təşkilatlarının, eləcə də, fəalların maliyyə dəstəyi ilə 17324 ailəyə ərzaq və digər yardımlar göstərilmişdir.

Yeni Azərbaycan Partiyası və ƏƏSMN aprelin 4-də başladığı birgə sosial aksiya çərçivəsində isə 21138 ailəyə sosial xidmət göstərilmişdir.

İcladsa həmçinin, Yeni Azərbaycan Partiyasında fəaliyyət göstərən komissiyaların yenidən formalaşması məsələsi müzakirə edilmişdir. Qəbul edilmiş qərara əsasən, komissiyaların tərkibində müvafiq dəyişikliklər edilmişdir. İclas iştirakçıları komissiyaların fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində təkliflərlə çıxış etmişlər. İclasda daha sonra partiya həyatı ilə bağlı bir sıra məsələlər müzakirə edilmişdir.

# Ramin Bayramlı: "Qısamüddətli özünütəcridin səmərəsi mütləq olacaq"




***Uzunmüddətli özünütəcrid epidemioloji baxımdan daha çox effekt verir. Lakin bir çox ölkələrin və bizim təcrübə onu göstərir ki, uzunmüddətli özünütəcriddən sonra vətəndaşlar daha çox sərbəstliyə meyl edirlər. Heç bir qərar təhlil edilmədən qəbul edilmir. Həftə sonları və bayram günlərində özünütəcrid tətbiq edən ölkələrin statistik göstəriciləri təhlil olunub. Lakin qısamüddətli özünütəcridin da səmərəsi var. Ancaq elə düşünmək lazım deyil ki, həftənin şənbə-bazar günləri sərt karantin tətbiq edildi və həftənin birinci günündən yoluxmanın sayı azalacaq.***

Bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

Onun dediyinə görə, təmasların minimuma endirilməsindən sonra xəstəliyin inkubasiya və klinik əlamətlərinin meydanaçıxma dövrünə uyğun olaraq 7, 10, 14 gün sonra həmin nəticə əldə olunduğu barədə statistik məlumat vermək olar: "Biz də bu özünütəcridin nəticəsi barədə bir və ya iki həftə sonra məlumat verə biləcəyik. Aparılan təhlillər göstərir ki, burada müsbət təsir mütləq olacaqdır. Lakin bazar ertəsi işə çıxandan sonra da qaydalara ciddi şəkildə əməl etmək lazımdır".

# Hande Harmancı: "Tətbiq olunan sərt karantin qaydaları 10-14 gün ərzində yoluxma sayında azalmaya səbəb olacaq"




Avropada 2 milyondan çox insan COVID-19-a yoluxub, onlardan 180 mindən çoxu vəfat edib. Son vaxtlar qitədə yoluxanların sayı azalıb. AZƏRTAC-ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı bildirib.

Hande Harmancı bildirib ki, hazırda dünya pandemiyanın birinci mərhələsindədir və hər bir ölkə koronavirusla mübarizədə hansı addımların səmərəli olacağını bilir.

Onun sözlərinə görə ölkəmizdə son günlər qeydə alınan mənfi tendensiya qaydaların sərtləşdirilməsini zəruri edir. Tətbiq olunan sərt karantin qaydaları 10-14 gün ərzində yoluxma sayında azalmaya səbəb olacaq. "Dünyanın dörd bir yanında peyvəndin hazırlanması üzərində iş gedir. Peyvənd hazırlanandan sonra onun hamıya əlçatan olması təmin ediləcək. Lakin həmin vaxtadək özümüzü virusdan qorumaq üçün maksimum diqqətli olmalı, qaydalara əməl etməliyik. Bunu təkcə özümüzü deyil, yaxınlarımızı da düşünüb etməli və virusla yaşamağa öyrəşməliyik", - deyə ÜST rəsmisi qeyd edib.

# Əli Əhmədov: Heydər Əliyev unudulmur və unudulmayacaq

**Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı "Heydər Əliyevin tarixdə rolunu təhrif etmək istəyənlərə" sərlövhəli məqaləsinin aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik:**



- Azərbaycanın son 102 illik tarixi müxalifətin təşəbbüsü ilə ekspert qrupları səviyyəsində yenidən müzakirə mövzusuna çevrilib. Belə bir müzakirənin açılmasını adi elmi diskussiya saymaq olardı. Lakin diskussiyaların xalis siyasi və ideoloji yönümü ona adi elmi müzakirə kontekstindən yanaşılmasını qeyri-mümkün edir. Müxalifətin məlum kəsimi yenə də ənənəsinə uyğun olaraq müstəqillik tarixini öz inhisarına almaq və buradan çıxış edərək mövcud hakimiyyətin və onun qurucusu Heydər Əliyevin tarixdəki rolunu təhrif etmək yolunu seçməklə diqqəti özünə cəlb etməyə çalışır.

Əvvəla, onu qeyd edim ki, müxalifətin Azərbaycan hakimiyyətinin Xalq Cümhuriyyətinə münasibətinə verdiyi qiymət əsassız və əsassız olduğu qədər də qeyri-obyektivdir. Azərbaycan Respublikasının özünü Xalq Cümhuriyyətinin varisi sayması, Cümhuriyyətin elan olunduğu 28 mayın dövlət bayramı kimi qeyd edilməsi müxalifətin ittihamlarının qərəzli və siyasi cəhətdən motivləndiyini sübuta yetirən ən adi həqiqətlərdir. Hakimiyyətin həyata keçirdiyi siyasətdə Cümhuriyyət qurucularının amalı olan dövlət müstəqilliyi ideyasının başlıca və həlledici komponent kimi iştirak etməsi onların xatirəsinə və irsinə sönməz hörmət və ehtiramın bariz ifadəsi sayılmalıdır. Bu mənada mən bəzi müxalifətçilərin Azərbaycan hakimiyyətini Cümhuriyyətin qurucularına və onların ideyalarına yetərincə hörmət göstərməməkdə suçlamasını qeyri-obyektivliyin və qərəzliyin yüksək ifadəsi kimi qiymətləndirirəm.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixində rolu məsələsinə müxalifətin yenidən diqqət ayırması və ənənəsinə uyğun olaraq onu təhrif etməyə çalışması ayrıca təhlil mövzusudur. Müxalifətin Heydər Əliyevin şəxsiyyətinə münasibətində xüsusi bir qısqanclığın olması heç kimə sirr deyil. Liderləri də daxil olmaqla onların edə bilmədiklərini Heydər Əliyevin həyata keçirməsi və nəticə etibarilə Azərbaycanın müasir tarixinin hamılıqla qəbul edilən müəllifinə çevrilməsi onları rahat buraxmır. Mən buna uğursuzluq sindromunun yaratdığı qısqanclıq kimi baxıram. Ancaq etiraf olunmalıdır ki, bu xüsusda günahkar axtarılacaqsa, onu uğursuzların arasında tapmaq mümkündür.

Heydər Əliyevin tarixdəki rolunu saxtalaşdırmaq cəhdlərində indi tarixçi Cəmil Həsənli xüsusi canfəşanlıq göstərir. Mən onun vaxtilə yazdığı kitablarda Heydər Əliyev haqqında çox yüksək fikirlərin əks olunduğunu bir kənara qoyuram. Bu, necə deyərlər, mənəviyyat məsələsi, şəxsiyyətin özü-özünü inkar etməsidir. Buna baxmayaraq, ciddi tarix tədqiqatçısı olduğunu şübhə altına almadığım birisinin Heydər Əliyevin az qala, obrazlı şəkildə desək, SSRİ-də doğulduğunu və yaşamasını onun günahı kimi təqdim etməyə çalışması tarixin siyasətə qurban verilməsinin nə qədər arzuolunmaz nəticələrə gətirib çıxardığına acı nümunədir.

Azərbaycan iki illik fasilə ilə 1813-cü ildən 1991-ci ilə qədər Rusiyanın və SSRİ-nin tərkibində olub. Təxminən 170 il ərzində Azərbaycanın indiki əhalisinin əhəmiyyətli bir hissəsi də daxil olmaqla 6 nəsli həmin dövlətlərdə yaşayıb. Onların içərisində ziyalılar da yetişib, az sayda olsa da dövlət xadimləri də. Nə həmin dövrdə yaşamaq, nə də müxtəlif sahələrdə, o cümlədən dövlət idarəçiliyində xidmətlər göstərmək onları milli köklərdən və ruhdan məhrum etməyib və edə bilməzdi. Haqqında söhbət açdığımız tarixi şəraitdə, daha dəqiq ifadə etsək SSRİ dövründə yetişmiş ən böyük şəxsiyyət və dövlət xadimi məhz Heydər Əliyev olmuşdur.

Müxalifətin məntiqinə görə, SSRİ dövründə müxtəlif sahələrdə çalışanlar sovet ideologiyasına xidmət etdiklərindən milli ruhlu insanlar ola bilməzlər. Bu məntiqlə yanaşsaq, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və digər korifeylər də həmin kateqoriyaya aid edilməlidir. Deməli sovet dönəmində heç kim idarəçilikdə çalışmamalı, elm, mədəniyyət, incəsənətlə məşğul olmamalı idi ki, indiki müxalifət onları qeyri-milli olmaqda suçlaya bilməsin. Bəs alternativ nə olmalı idi? Bu cür yanaşmanın nə qədər bəsit təfəkkürün məhsulu olduğunu sübut etməyə ehtiyac duymuram.

Qeyd edildiyi kimi, sovet hakimiyyəti illərində yetişmiş ən parlaq azərbaycanlı dövlət xadimi və siyasi xadim Heydər Əliyev olub. Lakin bu ona dərin milli ruha malik olmasına, o dövrün imkanları daxilində öz xalqına ləyaqətlə və böyük fayda ilə xidmət göstərməsinə mane ola bilməzdi və bilmədi. Sovet dövründə yüksək dövlət vəzifələrində çalışmasına görə onun Azərbaycan tarixində rolunu təhrif etməyə çalışan müxalifətin bütün cəhdlərinə baxmayaraq, xalqın tarixində elə o dövrdə buraxdığı dərin izlər indidə xatırlanır və qiymətləndirilir. Sovet dövründə Azərbaycanda iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir. Bakının, Gəncənin, Sumqayıtın, digər şəhər və kəndlərin simasının kökündən dəyişməsi, əhalinin əksəriyyətini təşkil edən kənd yerlərində yaşayanların məişətinin və həyat tərzinin bütünlüklə yeniləşməsi və müasirləşməsi Heydər Əliyevin adı ilə bağlı idi. Onun şəxsi təşəbbüsü ilə Azərbaycanda o dövr üçün ən müasir onlarla zavod, sənaye müəssisəsi, universitet, səhiyyə və mədəniyyət mərkəzi, hərbi məktəb yaradıldı, hər il yüzlərlə azərbaycanlı gənc SSRİ-nin ən qabaqcıl ali təhsil ocaqlarında təhsil almağa göndərilirdi. Sadalananların hər biri Azərbaycana, Azərbaycan xalqına xidmətin ayrı-ayrı nümunələri kimi xatirələrdə yaşayır. Azərbaycanın elm, mədəniyyət və incəsənət xadimlərinə o dövr üçün şöhrətin və yaradıcılıq uğurlarının etirafının ən yüksək pilləsi hesab edilən adların və mükafatların verilməsi xalqın və onun tarixinin, mədəniyyətinin ən yaxşı təbliği sayılırdı. Heydər Əliyevin sovet dövrü fəaliyyətində yetərincə sırf milli komponentin (əlbəttə, mövcud şərtlər daxilində) özünü biruzə verdiyinə aid nümunələr də kifayət qədərdir. Azərbaycanın dövlət idarəçiliyi sahəsində milli kadrların kəmiyyət baxımından kəskin şəkildə artması onun dövründən etibarən müşaiyət olunmağa başladı. Yaxud, bir sıra inzibati ərazi vahidlərinin adlarının dəyişdirilməsi, Gəncə adının qaytarılması istiqamətində ilk addımın atılması (o zamankı Kirovabad şəhərində iki rayon yaradılaraq birinin Gəncə adlandırılması), Bakıda inşa edilən möhtəşəm saraya "Gülüstan" adının verilməsi və s. Heydər Əliyevin milli ruhlu dövlət xadimi olmasını sübuta yetirən digər faktlardır. Stalin repressiyasının qurbanı olmuş Hüseyn Cavidin nəşinin Sibirdən Azərbaycana gətirilməsi, başqa bir repressiya qurbanı Mikayıl Müşfiqə Bakıda abidə ucaldılması və digər çoxsaylı milli ruhlu qərarların qəbul edilməsini də nəzərə alsaq, müxalifətin Heydər Əliyevin tarixi xidmətlərinin milli köklərdən qoparmaq cəhdlərinin nə dərəcədə saxta iddialara əsaslandığını və ziyanlı xarakter daşıdığını dərk etmək çətin deyil.

Heydər Əliyev böyük dövlət xadimi və dahi siyasətçi idi. Sovet rejiminin məlum qaydaları və şərtləri daxilində mənsub olduğu xalqa ləyaqətlə xidmət etməyin və fayda verməyin yollarını aydın dərk edirdi. Onu sovet idarəçiliyinə xas olan ideoloji qaydalara əməl etdiyinə görə tənqid etmək cəhdləri qədər tarixdə şəxsiyyətin roluna mənasız, hər cür məntiqdən və rasionallıqdan məhrum yanaşma təsəvvür etmirəm. Düşünürəm ki, bu məntiqdən məhrum olan tənqidlərin müəllifi Cəmil Həsənli Bakı Dövlət Universitetində çalışarkən özünün buraxdığı ciddi səhvlər nəticəsində yaranmış problemlə üzləşəndə Leninin mavzoleyinə şikayət məktubları göndərdiyini, Əli Kərimli isə hərbi xidmətdən qayıdıb BDU-da təhsil alarkən, qrupda ən yaşlı tələbə kimi tələbə komsomol komitəsinin katibi seçildiyini unutmayıb. Bu onlara özlərini milli ruhlu insanlar kimi təqdim etməyə mane olmursa, onda niyə sovet cəmiyyətində yaşamış və işləmiş digər insanlara başqa münasibət sərgiləməlidir. Əvvəldə qeyd etdim, haqqında söhbət açdığımız müxalifət nümayəndələrində onların liderlərinin və özlərinin edə bilmədiyini böyük məharətlə etmək qabiliyyətinə görə Heydər Əliyevə dərin qısqanclıq kompleksi yaranıb. 1992-ci ildə tale AXCP-Müsavat təmsilçilərinə hakimiyyət bəxş edərək onlara müstəqilliyi qorumaq, müstəqil dövləti qurmaq şansı verdi. Lakin onlar bu şansdan istifadə edə bilmədilər. Çünki onlarda Heydər Əliyevdə olan zəka, iradə, qətiyyət, dövlətçilik təcrübəsi, bir də ki, hər bir dövlət xadiminə çox lazım olan millət sevgisi çatmırdı. Cəmi bir ilin içərsində iflasa uğradılar, dövləti bankrot etdilər, ölkəni parçalanmaq həddinə gətirdilər. Nəticəsi məlumdur: xalq yarıtmaz hakimiyyət kimi onları devirdi və acınacaqlı hala düşmüş Azərbaycanı xilas etmək naminə Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

İndi Heydər Əliyevin tarixi rolunu böhtanlar və yalanlarla təhrif edənlərdən soruşmaq lazımdır: xalq niyə taleyinin ən ağır günündə məhz Heydər Əliyevə üz tutdu, hakimiyyətə dəvət etdi?! Bu sualın yeganə cavabı var. Azərbaycan xalqı Heydər Əliyevi o dərəcədə milli ruhlu, vətənsevər dövlət xadimi kimi tanıyır və qəbul edirdi ki, ən ağır günlərdə taleyini yalnız ona etibar edə bilərdi. Çünki bilirdi ki, Heydər Əliyev həyatı bahasına olsa da Azərbaycanı dardan xilas edəcək. Və yanılmadı. Uğursuz siyasətçilər bunu Heydər Əliyevə bağışlaya bilmirlər. Onun şəxsiyyətinin əzəməti və tarixi xidmətlərinin böyüklüyü qarşısında cılız və əlacsız olduqları daha qabarıq görünür.

Başqa bir həqiqət də var ki, onu da xatırlamaq yerinə düşər. Əgər Heydər Əliyev haqqında indiki azsaylı böhtançıların söylədikləri doğru idisə, niyə onların da vəzifələr tutduğu hökumət 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi, arxasınca prezident təyyarəsini göndərdi?! Kimə və nəyə inanaq - 1993-cü ildə indiki müxalifətçilərin vəzifə tutduğu hökumətin rəhbərlərinin Heydər Əliyevin zəkasını, gücünü, əzəmətini və təbii ki, milli ruhunu qiymətləndirərək dağılmaqda olan Azərbaycanı və əlbəttə ki, özlərini xilas etmək üçün paytaxta dəvət etməsi kimi tarixi fakta, yoxsa illər keçəndən sonra Heydər Əliyev ruhunun əzəməti qarşısında acizlik kompleksi yaşayan bir neçə müxalifət nümayəndəsinin məntiqdən və rasionallıqdan məhrum böhtanlarına?

Faktları inkar etmək heç kimə müyəssər olmayıb. Deyilənlər kontekstində iki tarixi faktı yada salmaq istəyirəm: birincisi, qalıqları bu gün Heydər Əliyevlə əlaqədar böhtan uyduran AXCP-Müsavat hakimiyyətinin cəmi bir il iqtidarda olmasıdır. İkinci fakt isə Heydər Əliyevin 10 il davam edən Prezidentliyidir. Birincilərin 13 aylıq hakimiyyəti xaos, anarxiya, total böhran və vətəndaş müharibəsi ilə, Heydər Əliyevin hakimiyyəti isə birincilərin qoyub getdiyi ağır mirasın aradan qaldırılması, sabitlik və əmin-amanlığın bərqərar olması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi və müstəqil Azərbaycan dövlətinin qurulması, "Əsrin müqaviləsi" adını almış neft sazişinin imzalanması və s. möhtəşəm inkişaf və dəyişikliklərlə tarixə düşüb. Bu inkişaf indi də davam edir, Heydər Əliyev ideyaları yaşayır və Azərbaycan xalqına xidmət edir. Müasir, qüdrətli, güclü Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsi və təcəssümüdür. Qeyd edilən həmin faktların əks etdirdiyi tarixi həqiqətləri təhrif etmək üçün kimlərsə cəhdlər edə bilər, lakin nəticəsiz qalacaq. Müqayisə edilən tarixi dövrlər və dövrün liderləri bir-birindən o dərəcədə fərqlənir ki, istənilən təhrif və ya saxtakarlıq nəyisə dəyişdirmək gücündə deyil.

Ayrı-ayrı vaxtlarda Heydər Əliyevə qarşı çox haqsızlıqlar edilib. Lakin zaman hər şeyi öz yerinə qoyub. Heydər Əliyev isə həmişə haqqın və ədalətin yanında olub. Ona görə də, Heydər Əliyev elə möhtəşəm tarixdir ki, onu dəyişdirmək imkan xaricindədir. 1993-cü ilin fevral ayında Heydər Əliyev Naxçıvandan Bakıya gəlmişdi. Yeni Azərbaycan Partiyasının üzvləri ilə görüşdə iştirakçılardan biri çıxışında o zamankı Prezident Əbülfəz Elçibəyin şəxsiyyəti haqqında kəskin ifadələr işlətdi. Heydər Əliyev dərhal onu dayandırıb, "Əbülfəz Elçibəy Azərbaycanın prezidentidir. Sənə də, digərlərinə də dövlətimizin başçısının şəxsiyyəti haqqında kəskin ifadələr işlətməyi məsləhət görmürəm. Biz onun yeritdiyi siyasəti tənqid edirik, lakin şəxsiyyətinə hörmətlə yanaşmaq lazımdır" dedi. Bu epizod Heydər Əliyevin həm insan, həm siyasətçi, həm də dövlət xadimi kimi böyüklüyünü təsdiq edən yüzlərlə faktlardan yalnız biridir. Ona görə Heydər Əliyev unudulmur və unudulmayacaq.

# "Pandemiya şəraitində reallaşdırılan tədbirlərin miqyası kifayət qədər genişdir"



*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri Cavid Osmanovun yap.org.az-a müsahibəsi:*

***- Cavid müəllim, pandemiya şəraitinin davam etməsinə baxmayaraq, ölkəmizin iqtisadiyyatı öz dayanıqlılığını qoruyub saxlamaqdadır. Bu reallığı hansı amillərlə izah edərdiniz?***

- Məlumdur ki, koronavirus pandemiyası dünya ölkələrinin sosial-iqtisadi həyatına çox ciddi təsir etməkdədir. Belə bir şəraitdə Azərbaycanın pandemiyanın yaratdığı çətinlikləri sırf daxili imkanlar hesabına qarşılaması təqdirəlayiq haldır. Bu da son 16 ildə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Ötən illər ərzində respublikamızın həyatı uğurla reallaşdırılan islahatlarla səciyyələnib. Aparılan islahatlar sayəsində ölkəmizdə iqtisadi inkişaf üçün bütün şərtlər təmin olunub. Bilirsiniz ki, Azərbaycan bəhs olunan dövrdə ümumi daxili məhsul istehsalını 3,4 dəfə genişləndirməklə dünya üzrə ən dinamik iqtisadi inkişaf templərinə malik olan ölkələr sırasında yer alıb. Paralel şəkildə, ölkəmizin strateji valyuta ehtiyatları artırılıb.

Vaxtında yaradılan güclü "təhlükəsizlik yastığı" indiki pandemiya şəraitində meydana çıxan çağırışları qarşılamağa imkan verir. Əlamətdar haldır ki, pandemiya şəraitində respublikamızda böyük həcmlərdə maliyyə vəsaiti ayrılaraq genişmiqyaslı səhiyyə tədbirləri həyata keçirilir. Respublikamızda pandemiya şəraitində heç bir sosial layihə ixtisara salınmayıb.

Ölkəmizdə pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan tədbirlərin böyük bir qismi iqtisadiyyatın müxtəlif istiqamətlərini əhatə edir. Respublikamız pandemiya şəraitində iqtisadi subyektlərin dəstəklənməsi, o cümlədən də əməkhaqlarının və iş yerlərinin qorunması proqramlarının icrasına böyük həcmlərdə maliyyə vəsaiti yönəldir. Prezident İlham Əliyev bildirib ki, biz qeyri-formal məşğulluqla mübarizə aparırıq və ciddi tədbirlər görmüşük. Təkcə bu il işçilərlə şirkətlər arasında 100 mindən çox müqavilə imzalanıb.

Hazırda ölkəmizdə iqtisadiyyatın pandemiyadan zərər çəkən sahələrində çalışan muzdlu işçilərə və mikrosahibkarlara dəstək proqramı uğurla reallaşdırılır. Bu proqram təxminən 600 min insanı əhatə edir. Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planının iqtisadi artıma və sahibkarlığa dəstək istiqaməti üzrə bir neçə sahənin maliyyələşdirilməsi həyata keçirilir. O cümlədən, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqlarının ödənilməsi üçün dövlət büdcəsindən 69 milyon 119 min manat, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi üçün 55 milyon 637 min manat vəsaitin ayrılması təmin edilib. Sahibkarlığın İnkişafı Fonduna sahibkarlıq subyektlərinə bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması məqsədilə 35 milyon manat ödənilib. Tədbirlər Planında nəzərdə tutulduğu kimi, iqtisadiyyatın həyati vacib sərnişindaşıma sahəsinə də maliyyə dəstəyi göstərilir.

Bütün bunlar göstərir ki, pandemiya şəraitində milli iqtisadiyyatımızın dəstəklənməsi məqsədilə reallaşdırılan tədbirlərin miqyası kifayət qədər genişdir. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən bütün bu dəstək tədbirləri pandemiya şəraitində milli iqtisadiyyatımızın sabitliyinin və funksionallığının qorunmasına, eyni zamanda, postpandemiya dövründə yeni iqtisadi modelin tətbiqinə real zəmin yaradılmasına hesablanıb.

***- Ölkəmizdə qeyri-enerji sektorunun inkişafı istiqamətində atılan addımlar hansı səviyyədədir?***

- Ötən illər ərzində respublikamızda iqtisadiyyatın neftdənkənar sahələrinin imkanlarının genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətini təşkil edib. Təsadüfi deyil ki, cari ilin 4 ayında milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəricisi 16 faiz olmaqla məhz qeyri-neft sənayesində qeydə alınıb. Yeri gəlmişkən, Davosda region üzrə Dördüncü Sənaye İnqilabının regional habının yaradılması üzrə sənədin imzalanması Azərbaycanın sənaye inkişafı sahəsində səylərinin yaxşı qiymətləndirilməsinin təsdiqidir. Prezident İlham Əliyev də çıxışlarında müasir dövrdə Azərbaycanın texnoloji yeniliklərə əsaslanan fəal sənaye inkişafının zəruriliyini vurğulayıb.

Azərbaycanda iqtisadiyyatın neftdənkənar sahələrinin inkişafından danışarkən, son illərdə ölkəmizdə elektrik enerjisinin istehsalının əhəmiyyətli dərəcədə artmasının önəmini ayrıca qeyd etmək lazımdır. Qısa müddətdə respublikamızın elektrik enerjisini idxal edən ölkədən bu sahədə ixracatçı ölkəyə çevrilməsi qürurverici haldır. "Azərenerji" ASC minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artırmağa nail olub və bu proses davam edir. Qafqazda ən böyük olan Mingəçevir elektrik stansiyası tamamilə bərpa olunub. Azərbaycanda hazırda bərpa olunan enerji mənbələri üzərində fəal şəkildə iş aparılır. Bu sahədə ümumi enerji hasilatının həcmi 400 meqavata çatacaq.

Neftdənkənar iqtisadiyyatın inkişafına güclü siyasi iradə göstərən Azərbaycan həmçinin özünün nəqliyyat-tranzit imkanlarını genişləndirməyi hədəfləyib. Son illərdə reallaşdırılan önəmli layihələr sayəsində respublikamız regionun mühüm nəqliyyat qovşağına çevrilib.

Artıq Avropadan Asiyaya və əks istiqamətə gedən yüklər Azərbaycan üzərindən daşınır. Respublikamız özünün nəqliyyat infrastrukturunun imkanlarını daha da genişləndirmək niyyətindədir.

***- Gündəmdə olan digər məsələ sosial şəbəkələrlə bağlıdır. Bu sahədə hüquqi tənzimləmə işlərinin həyata keçirilməsinin zəruriliyi cəmiyyətimizdə geniş müzakirə olunmaqdadır. Buna münasibətiniz necədir?***

- Əlbəttə ki, bu reallıq qaçılmazdır. Ümumiyyətlə, sosial şəbəkələrin bu gün insan həyatının ayrılmaz bir hissəsinə çevrilməsi danılmaz faktdır. Bütün bunların fonunda sosial şəbəkələrin fəaliyyətinin hüquqi müstəvidə tənzimlənməsi məsələsi olduqca aktualdır. ABŞ Prezidentinin bu barədə verdiyi qərar bu aktuallığı daha da gücləndirir.

Bilirsiniz ki, istənilən ölkədə sosial şəbəkələr azaddır və bu azadlıqdan sui-istifadə halları da kifayət qədərdir. Əgər internet üzərindən terrora, müharibəyə, qarşıdurmaya, vətəndaşlara təhqir çağırışları varsa, eyni zamanda ictimaiyyətə başqa formada fikirlər çatdırılırsa və bu da çaşqınlıq yaradırsa, bunun qarşısı alınmalıdır.

Azərbaycanın müstəqil siyasət yürüdən güclü dövlət kimi beynəlxalq arenada nüfuzunun artması anti-Azərbaycan və ermənipərəst dairələri narahat edir, ölkəmizə qarşı qarayaxma kampaniyaları təşkil olunur. Antimilli ünsürlər məhz sosial şəbəkələrin yaratdığı belə qeyri-qanuni imkanlardan istifadə edərək Azərbaycana, dövlətçiliyə qarşı yalan, böhtan, təhqir dolu fikirlər səsləndirirlər. Azərbaycan dəfələrlə xarici anti-Azərbaycan qüvvələrinin sosial şəbəkələr, onlayn platformalar vasitəsilə qərəzli kampaniyalarına məruz qalıb, ölkəmizə qarşı ardıcıl terror çağırışları indi də davam edir. Sosial şəbəkələrlə bağlı beynəlxalq səviyyədə universal normativ hüquqi aktların hazırlanması və tətbiqi ilə bağlı müzakirələr gedir, ayrı-ayrı ölkələrdə qanunlara əlavələr olunduğu, yeni qanunların qəbuluna hazırlıqlar getdiyi bir vaxtda Azərbaycan da bu prosesdən kənarda qalmamalı və məsələ ilə bağlı müvafiq qanunvericilik bazası formalaşdırılmalıdır.

# "AİB Azərbaycanın çoxsaylı infrastruktur layihələrini dəstəkləyib"

***"Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə aktiv və uğurlu xarici siyasət həyata keçirir. Bu səbəbdən Azərbaycanın nüfuzu dünyada getdikcə daha da güclənir. Regionda və dünyada Azərbaycana inam və güvən daha da artır". Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.***




Deputatın sözlərinə görə, Azərbaycanın xarici siyasətində beynəlxalq qurumlarla əməkdaşlıq xüsusi yer tutur: "Bu dövrdə Azərbaycan özünə qapanmayaraq pandemiya ilə mübarizədə beynəlxalq səylərə də dəstək verməyə çalışdı. 15-ə yaxın ölkəyə yardım etdi, dəstək verdi. Videokonfrans formatında bir neçə beynəlxalq mühüm tədbirin təşkilatçısı oldu. Türk Şurasının və Qoşulmama Hərəkatının toplantısı bu qəbildən olan tədbirlərdəndir. Bu eyni zamanda, beynəlxalq aləm tərəfindən ölkəmizə verilən önəmin, göstərilən etimadın göstəricisidir.

Bildiyiniz kimi, Azərbaycan və Asiya İnkişaf Bankı son 20 ildə sıx şəkildə əməkdaşlıq edib. Asiya İnkişaf Bankının illik toplantısı 2015-ci ildə Bakıda yüksək təşkilatçılıqla keçirilib. Bu bankın ölkəmizə ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötüb. Kifayət qədər böyük rəqəmdir. Bu qurum Azərbaycana həmçinin, infrastruktura investisiya yatırmağa kömək edib, elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəkləyib. Həmçinin, Asiya İnkişaf Bankı Cənub Qaz Dəhlizi layihəsinə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Məlum olduğu kimi, Cənub Qaz Dəhlizi tamamlanmaq üzrədir, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Azərbaycan Asiya İnkişaf Bankı ilə suvarma və təhsillə bağlı layihələrin icrasında da əməkdaşlıq edir. Getdikcə bu əməkdaşlığın əhatə dairəsi daha da genişlənir. Bu da öz növbəsində hər iki tərəfin inkişafına öz töhfəsini verir".

# "ABŞ dollarının kəskin ucuzlaşacağı pronozlaşdırılmır"



"Pandemiya və eyni zamanda ABŞ-da baş verən son ixtişaşlar Amerika iqtisadiyyatına mənfi təsir göstərir. Nəzərə alsaq ki, pandemiyadan ən çox zərər çəkən dövlət artıq ABŞ-dır. Amma təbii ki, ABŞ yenə də dünyanın iqtisadi baxımından aparıcı ölkəsidir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Vüqar Bayramov deyib. Deputatın sözlərinə görə, eyni zamanda valyuta baxımından da ABŞ dollarına alternativ valyutalar hələlik yoxdur: "İndiki halda alternativ ola biləcək valyuta avrodur. Amma eyni zamanda nəzərə almaq lazımdır ki, avrozonada da pandemiya səbəbindən vəziyyət heç də ürəkaçan deyil. Bu da nəticə etibarilə avronun da məzənnəsinə birbaşa təsir göstərir".

V.Bayramov bildirib ki, ABŞ-da son vaxtlar baş verənlər fonunda ABŞ dollarının səbət valyutalara nisbətən məzənnəsində müəyyən dəyişikliklər ola bilər: "Əslində FED-də dolların ucuzlaşmasında maraqlı görünür. Amma dolların kəskin ucuzlaşması hələlik gündəmdə deyil. Xüsusən də İnkişaf etməkdə olan ölkələrin valyutalarına nisbətən ucuzlaşacağı gözlənilmir. Güman olunur ki, səbət valyutalara malik olan digər ölkələrdə də iqtisadi vəziyyətin ürəkaçan olmadığını nəzərə alsaq hələlik dolların digər valyutalara nisbətdə kəskin ucuzlaşacağı gözlənilmir".

# "Həftə sonları tam qapanma vətəndaşların sağlamlığının qorunması məqsədi daşıyır"



***"Son yoluxma sayını nəzərə alsaq, artıq həftə sonlarında küçəyə çıxmağın, ictimai və fərdi nəqliyyat vasitələrinin hərəkətinin qadağan edilməsi bir zərurətdir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. Millət vəkili bildirib ki, buna səbəb son günlər yoluxan və sağalan insanlar arasında fərqin kəskin artmasıdır və hökumətin pandemiyanın ilk günlərindən qəbul etdiyi qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olurdu:***

"Məhz bu səbəbdən karantin rejimindən mərhələli çıxmaq planı artıq başlanmışdı. Ancaq sərt karantin rejiminin yumşaldılmasından sonrakı dövrdə insanların çoxu TƏBİB-in açıqladığı metodiki göstərişlərə əməl etmədi, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmadı, sosial məsafəni gözləmədi. Vətəndaşların əksəriyyətinin son zamanlar karantin rejiminin tələblərinə ciddi əməl etməməsinə görə yoluxan və sağalanlar arasında kəskin fərq yaranıb, karantin rejiminin yenidən sərtləşdirilməsi barədə təkliflər hazırlanıb. Dünən Operativ Qərargahın brifinqində karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı deyilənlər də məhz bu laqeydliyin nəticəsidir. Unutmamalıyıq ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargah infeksiyanın Azərbaycanda qeydə alındığı gündən məqsədyönlü fəaliyyət göstərib. Sərt karantin rejiminin mərhələlərlə yumşaldılmasına başlanan müddətədək yoluxmanın və itkinin minimuma endirilməsi, eyni zamanda bu dövrdə ölkənin tibb müəssisələrinin bu sahədə yüksək səviyyəli kadrlarla və texniki avadanlıqlara təchizatı təmin edilib, laboratoriyalar yaradılıb".

Qənirə Paşayevanın sözlərinə görə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq görülən işlər, əldə edilən uğurlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə kimi qeyd olunub:

"Dövlət üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib və bu gün də yerinə yetirməkdədir. Bundan sonrakı mərhələdə əsas həlledici amil vətəndaş məsuliyyəti idi. Nəzərə alınmalıdır ki, bu virus hələ bizim aramızdadır və insanlar bu virusla yaşamağı öyrənməlidir. Çünki virusla bağlı vaksinin nə zaman hazır olacağı bilinmir. Buna görə də insanlar məsuliyyətini dərk etməli və TƏBİB-in metodiki göstərişlərini maksimum əməl etməyə çalışmalıdır. Çünki cəmiyyətin uzun müddət sərt karantin rejimində yaşaması mümkün deyil. Buna görə də bir sıra ölkələrdə olduğu kimi Azərbaycanda da müxtəlif sahələrlə bağlı metodiki göstərişlər təsdiqlənib, qaydalar müəyyənləşib. Buna uyğun olaraq da mərhələli sərt karantin rejiminin yumşaldılmasına başlanmışdı. Bu sadə tələblərə riayət etmək, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaq, sosial məsafəni gözləmək bu virusdan qorunmağın ən asan və rahat yoludur. Ancaq xüsusən sərt karantin rejiminin yumşaldılması ilə bağlı son qərardan sonra təəssüf ki, maska taxılmaması, sosial məsafəni gözlənilməməsi meylləri artıb. Digər tərəfdən bayram günlərində insanların laqeydliyi nəticəsində yoluxmaların sayında nəzərəçarpacaq artım, yoluxanların sayının sağalanların sayından çox olması qeydə alındı".

O qeyd edib ki, dünənki brifinqdə Nazirlər Kabineti yanında Operativ Qərargahın tibbi bölməsinin həftə sonları COVID-19-a daha çox yayılmanın qeydə alındığı Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərində, Abşeron rayonunda küçəyə çıxmanın məhdudlaşdırılması təklifini dəstəkləyir:

"Hər bir vətəndaşın təhlükəsizliyinin qorunması və infeksiyanın nəzarətdən çıxmaması üçün həftə sonlarında küçəyə çıxmanın qadağan olunması vacibdir. Hər birimizin arzusu bu addımlar nəticəsində epidemioloji vəziyyətdə dəyişmələrin müsbət tendensiyalara dönməsi və yenidən yumşalmanın davam etdirilməsidir. Həftə sonları tam qapanma vətəndaşların sağlamlığının qorunması məqsədi daşıyır. Qapanmanın yalnız həftənin 2 gününü əhatə etməsi, ölkədə kifayət qədər ərzaq ehtiyatının olması, həmçinin maskaların və tibbi spirtin ölkəmizdə istehsalının təşkili vətəndaşlarımızın heç bir narahatçılığının olmamasına xidmət edir. Prezident İlham Əliyevin dünən Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməsi hər bir Azərbaycan vətəndaşı üçün nümunə olmalıdır. Hər bir vətəndaş şəxsi məsuliyyətini hiss etməli, Operativ qərargahın tələb və tövsiyələrinə riayət etməlidir".

***Nigar Məmmədova***

# "Keşikçidağ" qoruğunun ərazisində təxribat xarakterli hər hansı hadisə qeydə alınmayıb




Xəbər verildiyi kimi, "Keşikçi-dağ" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun ərazisində Gürcüstanın bir qrup vətəndaşı tərəfindən 2020-ci il iyunun 4-də dövlət sərhədinin pozulmasına yönələn təxribat xarakterli hərəkətlərin planlaşdırıldığına dair məlumatlar əldə olunub.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Gürcüstan Sərhəd Mühafizəsi ilə qarşılıqlı həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan-Gürcüstan dövlət sərhədində "Keşikçidağ" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun ərazisində təxribat xarakterli hər hansı hadisə qeydə alınmayıb. Bir daha bildirilir ki, Azərbaycan Dövlət Sərhəd Xidməti hər bir zaman dövlət sərhədlərinin keşiyində qətiyyətlə dayanıb.

# "Həftəsonu qadağanın tətbiqi vacibdir"



"Son günlər koronavirusla bağlı yoluxmaların sayında müşahidə olunan artım sərt karantin rejiminin yumşaldılmasından sonrakı dövrdə müəyyən qrup insanların TƏBİB-in açıqladığı metodiki göstərişlərə əməl etməməsi, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaması, sosial məsafəni gözləməməsi və laqeydliyinin nəticəsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın infeksiyanın Azərbaycanda qeydə alındığı gündən məqsədyönlü fəaliyyət göstərdiyini xüsusi vurğulayan millət vəkili söyləyib ki, sərt karantin rejiminin mərhələlərlə yumşaldılmasına başlanan müddətədək yoluxmanın və itkinin minimuma endirilməsi, eyni zamanda bu dövrdə ölkənin tibb müəssisələrinin bu sahədə yüksək səviyyəli kadrlarla və texniki avadanlıqlara təchizatı təmin edilib, laboratoriyalar yaradılıb.

M.İbrahimqızı qeyd edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq görülən işlər, əldə edilən uğurlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə kimi qeyd olunub: "Bir sözlə, dövlət üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib və bu gün də yerinə yetirməkdədir. Bundan sonrakı mərhələdə əsas həlledici amil vətəndaş məsuliyyəti idi. Nəzərə alınmalıdır ki, bu virus qeyb olmayıb, bizim aramızdadır və insanlar bu virusla yaşamağı öyrənməlidir. Çünki virusla bağlı peyvənd, dərmanın nə zaman hazır olacağı bilinmir və cəmiyyətin də uzun müddət sərt karantin rejimində yaşaması mümkün deyil. Buna görə də bir sıra ölkələrdə olduğu kimi Azərbaycanda da müxtəlif sahələrlə bağlı metodiki göstərişlər təsdiqlənib, qaydalar müəyyənləşib. Buna uyğun olaraq da mərhələli sərt karantin rejiminin yumşaldılmasına başlanmışdı. Bu sadə tələblərə riayət etmək, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaq, sosial məsafəni gözləmək bu virusdan qorunmağın ən asan və rahat yoludur".

Deputat bildirib ki, sərt karantin rejiminin yumşaldılması ilə bağlı son qərardan sonra maska taxılmaması, sosial məsafəni gözlənilməməsi meylləri artıb: "Ramazan bayramı və 28 may Respublika Günü ilə əlaqədar ardıcıl 8 gün qeyri-iş günü elan edildi. Həmin günlərdə bir sıra insanlar karantin rejiminin tələblərinə ciddi riayət etmədilər. Bayram günlərində bu insanların laqeydliyi nəticəsində yoluxmaların sayında nəzərəçarpacaq artım, yoluxanların sayının sağalanların sayından çox olması qeydə alındı. Bu gün isə yoluxanlarla sağalanlar arasında fərq 200 nəfəri ötüb. Bütün bunları nəzərə alaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın tibbi bölməsi həftə sonları COVİD-19-a daha çox yayılmanın qeydə alındığı Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərində, Abşeron rayonunda çölə çıxmanın məhdudlaşdırılmasını təklif edib. Artıq həftə sonlarında küçəyə çıxmağa qadağa qoyulması, ictimai və fərdi nəqliyyat vasitələrinin hərəkətinin həmin günlərdə qadağan edilməsi bir zərurətdir. Belə sərt tədbirlər tətbiq olunmasa, biz daha çox yoluxmaların şahidi olarıq. Ona görə də Operativ Qərargaha təqdim edilən təklifi dəstəkləyirəm. Bəzilərinin COVİD-19-un nə dərəcəli təhlükəli olmasının fərqində olmadığını nəzərə alsaq, həftə sonu bu qadağanın tətbiqi vacibdir".

***Nailə Məhərrəmova***

# "Hər birimiz bu məsələyə fərdi olaraq həssas yanaşmalıyıq"



***"Nazirlər Kabineti yanında Operativ Qərargahın rəsmiləri də hazırkı vaxta qədər bəyan edirdilər ki, pandemiya dövründə vətəndaş məsuliyyəti çərçivəsində tələb olunan tətbiqlərə ciddi şəkildə riayət edilməlidir, əks halda koronavirusa yoluxma halları arta və karantin rejimində yenidən müəyyən sərtləşmələr həyata keçirilə bilər". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev şənbə və bazar günləri karantin rejiminin sərtləşdirilməsi ilə bağlı verilən qərarı şərh edərkən deyib. Onun sözlərinə görə, təəssüf ki, müəyyən yumşaldılmalardan sonra müəyyən insanlarda arxayınlıq yaratdı. Halbuki, ölkə başçımız, Prezident İlham Əliyev cənabları daha əvvəlcədən bəyan etmişdi ki, əgər vəziyyət mənfi istiqamətə gedərsə, yenidən qərarların sərtləşdirilməsi mümkündür.***

Ekspert söyləyib ki, ölkədə koronavirus pandemiyasına qarşı mübarizə istiqamətində görülən genişmiqyaslı tədbirlərin əsas məğzini əhalinin sağlamlığının qayğısına qalmaq, qlobal pandemiyadan az itki ilə çıxmaq təşkil edir. Lakin məsuliyyətsizlik faktı görülən işlərin daha səmərəli olmasının qarşısını alır və bu yolverilməzdir: "Baxın, dövlətimiz hər zaman olduğu kimi, pandemiya dövründə də vətəndaşların sağlamlığı ilə yanaşı, rifah halının yaxşılaşdırılması, eləcə də ölkə iqtisadiyyatının sabitliyini təmin etmək üçün bütün imkanlardan istifadə edir. Azərbaycan dünya ölkələri sırasında nümunə qaydası göstərilir, amma təhlükəni ciddi qəbul etməyənlər əfsuslar olsun ki, hələ də var. Halbuki, Prezident İlham Əliyev Tərtər rayonuna etdiyi səfəri çərçivəsində bir sıra komplekslərin açılışında tibbi maskadan istifadə etdi və bununla vətəndaşlara mesaj yolladı ki, hər kəs bu təhlükədən qorunmalı, ətrafını da qorumalıdır".

B.Quliyev qeyd edib ki, həftə sonları tətbiq ediləcək məhdudiyyətlər reallaşdırılacaq tədbirlər ölkəmizin qlobal pandemiyadan az itki ilə çıxması, vətəndaşlarımızın sağlamlıqlarının daha müfəssəl qorunmasına hesablanmış addımdıR:: "Hesab edirəm ki, xalqımız qəbul edilən qərarları düzgün dəyərləndirməklə ən yüksək xüsusiyyəti olan həmrəylik, birlik göstərməli, tətbiq olunan qaydalara ciddi riayət etməlidir. Əgər bu olarsa, dövətimiz və xalqımız tezliklə bu bəladan az itkilərlə, birdəfəlik qurtulacaq. Əsas odur ki, müxtəlif tədbirlər nəticəsində pandemiya tam nəzarətə götürülüb. Amma lazım gəldiyi təqdirdə karantin rejiminin uzadılması və ya sərtləşməsi də qaçılmazdır. Vətəndaşlarımız bunu anlamalı və qəbul etməlidirlər. Ona görə də hər birimiz bu məsələyə fərdi olaraq həssas yanaşmalıyıq".

***Rövşən***

# “Siz bir daha sübut etdiniz ki, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz”

## *Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir*

***Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Respublikamızın bütün guşələrindən, eləcə də xaricdən həmvətənlərimiz dövlətimizin başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının bir qismini təqdim edir.***

Rusiyanın Krasnoyarsk diyarının Norilsk şəhərindən Elzabit Namazov yazır: “Möhtərəm cənab Prezident, mən uzun müddət doğma Vətənimdə yaşamasam da, qəlbən Azərbaycana bağlıyam. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hakimiyyətə gəldiyiniz gündən bəri dəqiq hədəflərə hesablanmış uğurlu daxili və xarici siyasətinizi dəstəkləyirəm. Hər dəfə doğma yurduma gələndə, Azərbaycanımın inkişafını görəndə fəxr hissi duyuram. Pandemiyaya qarşı mübarizədə ciddi işlərin görülməsi üçün vaxtında göstəriş verməyiniz ölkəmizdə xəstəliyin geniş yayılmaması üçün zəmin yaratdı. Aztəminatlı ailələrə və sahibkarlara yardımlara, bu çətin dövrdə ölkə iqtisadiyyatının inkişafının qorunub saxlanılması istiqamətində qəbul etdiyiniz düzgün qərarlara görə Sizə dərin təşəkkürümü bildirirəm. Möhtərəm cənab Prezident, bu çətin günlərdə Siz bir daha sübut etdiniz ki, həqiqətən bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz. Xalqımızın firavanlığı yolunda yorulmadan çalışdığınıza görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz adımdan və ailəmin adından təşəkkür edirəm”.

Böyük Britaniyanın Kardiff şəhərindən Arzu Rzayeva: “Hörmətli cənab Prezident, mən Böyük Britaniyanın Kardiff şəhərində təhsil alan azərbaycanlı tələbələrdən biriyəm. Yaranmış pandemik vəziyyət iş yerlərinin bağlanmasına səbəb olmuş və bu hal işləyərək öz tələbatlarını ödəyən tələbələri maddi cəhətdən çox çətin vəziyyətə salmışdır. Bu çıxılmaz vəziyyətlə üzləşən tələbələrdən biri olaraq yaşadığım evin kirayə haqqını ödəməkdə çətinlik çəkdiyim üçün ölkəmizin Londondakı səfirliyinə müraciət etdim. Müraciətimdən dərhal sonra mənimlə əlaqə saxlanıldı və bir neçə gün sonra müraciətimin qəbulu ilə bağlı mənə məlumat verildi. Bank rekvizitlərim alındı və müvafiq məbləğ dərhal hesabıma daxil edildi. Beləliklə, üzləşdiyim bu çətin məsələ dövlətimizin dəstəyi sayəsində öz həllini tapdı. Hörmətli cənab Prezident, bu çətin anda bizi köməksiz qoymadığınıza və göstərdiyiniz əvəzolunmaz dəstəyə görə Sizə hədsiz minnətdarlığımı bildirirəm”.

Məcburi köçkün Aysel Aslanzadə: “Hörmətli cənab Prezident, mən keçmiş Ağdərə rayonundan məcburi köçkünəm. Hazırda Bərdə rayonunda yaşayıram. Sizin diqqət və qayğınızı biz məcburi köçkünlər hər zaman hiss edirik. COVID-19 pandemiyasının dünyanı lərzəyə gətirdiyi hazırkı vaxtda Sizin necə müdrik və qayğıkeş dövlət başçısı olduğunuzu bir daha gördük. Elə bu məktubu yazmaqda əsas məqsədim də ona görədir ki, xalqımızı bu çətin bəladan qurtarmaq üçün həyata keçirdiyiniz məqsədyönlü işlər üçün Sizə dərindən təşəkkürümü bildirim. Cənab Prezident, xalqımız Sizi sevir. Siz bizim ümid və pənah yerimizsiniz”.

İsmayıllı rayonunun Topçu kəndindən Sevinc Hüseyinova: “Möhtərəm cənab Prezident, mən İsmayıllı rayonunun Topçu kənd tam orta məktəbinin 8-ci sinif şagirdiyəm. Bütün dünyanı sarsıdan koronavirus zamanı ölkəmizi qoruduğunuza, bu xəstəliyə qarşı mühüm işlər gördüyünüzə, dövlətimizin yüksəlişi üçün əlinizdən gələni etdiyinizə görə Sizə təşəkkür edirəm. Digər ölkələrdə bu virus çoxsaylı tələfata səbəb olsa da, Sizin sayənizdə ölkəmizdə xəstələrin sayı azdır. Mən inanıram ki, xalqımız Sizin sayənizdə bu çətin günlərdən üzüağ çıxacaqdır. Biz birlikdə qalib olacağıq!”.

Ağcabədi şəhərindən Zülfiyyə İsmayılova: “Möhtərəm cənab Prezident, mən bir Azərbaycan vətəndaşı olaraq Sizinlə fəxr edirəm. Siz Azərbaycan xalqının layiqli övladısınız. Siz xalqını sevən, hər bir vətəndaşının qayğısına qalan müdrik dövlət başçısısınız. Siz bunu COVID-19 epidemiyası dövründə bir daha sübut etdiniz. Dövlətimizin dəstəyi koronavirusla mübarizədə bizə böyük stimul verdi. Bu dövrdə dövlətin ayırdığı birdəfəlik ödəməni mən də almışam. Bu yardımın bizə ödənilməsi xalqa göstərdiyiniz qayğının daha bir nümunəsidir. Yaxşı ki, Siz Azərbaycanın Prezidentisiniz və biz hər zaman Sizin arxanızdayıq!”.

Cəlilabad rayonunun sakinləri Qasım Miriyev, Vüsal Ağayev, Emil Ağayev, İlqar Ağayev, Qəyum Ağayev və Kamran Məmmədov yazırlar: “Möhtərəm cənab Prezident, Sizin xalqımıza göstərdiyiniz diqqət və qayğı bizim Kazımabad kəndinin sakinlərindən də yan keçmir. Hazırda mövsümlə əlaqədar olaraq rayonumuzun kəndlərində insanlar əkinçiliklə məşğuldurlar. Biz kəndlilər əsasən kartof əkib-becəririk. Belə bir ağır dövrdə məhsulumuzu xarici bazarlara çıxarmağımıza böyük imkanlar yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Məhsullarımız iritonnajlı yük maşınları ilə xarici bazarlara daşınır. Siz həqiqətən də hər bir azərbaycanlının Prezidentisiniz! Allah Sizi qorusun!”.



Salyan rayonunun Marışlı kəndindən Ərəstun Hüseynov, Şahmar Usubov, Ramil İbrahimov və Rövşən Əhmədov yazırlar: “Möhtərəm cənab Prezident, son zamanlarda pandemiya ilə əlaqədar olaraq dünyanın bir çox ölkələri iqtisadi böhrana düçar olmuşdur. Amma bu gün Azərbaycan Respublikası yüksək inkişaf nəticəsində Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən gəlməkdədir. Təbii ki, Azərbaycanın bu cür inkişafının banisi və memarı ulu öndər Heydər Əliyev və Sizsiniz. Salyan rayonunun Marışlı kəndində asfalt yolun çəkilişi Sizin kəndlərə göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Yol mədəniyyətdir, inkişafdır. Bütün görülən bu işlər Sizin biz vətəndaşlara göstərdiyiniz qayğının nəticəsidir. Cənab Prezident, biz Marışlı kənd sakinləri Sizinlə bir daha qürur duyuruq. Sizə daha böyük uğurlar arzu edirik. Biz həmişə Sizinləyik”.

Şamaxı rayonunun ağsaqqalları adından Ədilxan Zülfüqarov, Kamal Adıgözəlov, Tahir Tağıyev və Xasay İsayev dövlətimizin başçısına minnətdarlıq edərək yazırlar: “Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyası dönəmində Sizin gərgin əməyiniz nəticəsində ölkəmizdə əhalini qorumaq üçün aparılan qabaqlayıcı tədbirlər öz bəhrəsini verir. Azərbaycanda bu virusun törədə biləcəyi ağır fəsadların qarşısının alınması istiqamətində atılan hər bir addım bütün əhali tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Səhiyyə sahəsində həyata keçirilən effektiv tədbirlər bu işlərə bilavasitə nəzarətin və fədakar əməyin nəticəsidir. Belə çətin dövrdə Sizin və Mehriban xanımın rayonumuza səfəriniz əhalimiz tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılandı.

Azərbaycan tarixində və mədəniyyətində xüsusi yeri olan Şamaxı özünün yeni çiçəklənmə dövrünü yaşayır. Bu, Sizin diqqətinizin nəticəsidir. Rayonumuzdakı tikinti-quruculuq, abadlıq işləri ilə yanaşı, tarixi abidələrə göstərdiyiniz qayğı onlara ikinci həyat verir və bizi sevindirir. Pirsaat Baba, İmadəddin Nəsiminin qardaşı Şahxəndanın türbəsi və Pir Ömər Sultan ziyarətgahlarının yenidən qurulması çərçivəsində görülən işlərə diqqətiniz isə biz şamaxılılar üçün mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bu abidələr bütün ölkə əhalisinin və başqa ölkələrdən gələn qonaqların ziyarət etdiyi müqəddəs yerlərdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son illərdə tariximizə və mədəniyyətimizə göstərilən qayğı Sizin milli mənəvi dəyərlərimizə həssas münasibətinizdən xəbər verir. Sizin şamaxılılara olan diqqətiniz hər addımda hiss olunur. Şamaxıda yeni binalar tikilir, zəlzələdən zərər çəkmiş minlərlə ev təzələnir, kəndlərə, qəsəbələrə yeni yollar salınır, ucqar kəndlər belə qazla təmin olunur, heç vaxt suyu olmayan kəndlərə su çəkilir, əhalimizə müasir avtobuslar xidmət göstərir. Çox təəssüf hissi ilə qeyd edirik ki, son zamanlarda ölkəmizdə, o cümlədən regionlarda aparılan inkişaf prosesinə kölgə salmağa çalışanlar var. Bu, ölkəmizi, Vətənimizi sevməyən, süni narazılıq yaratmaq istəyən şər qüvvələrin əməlləridir və onlar bu istəklərinə çatmayacaqlar. Əmin ola bilərsiniz ki, bütün Azərbaycan xalqı, o cümlədən şamaxılılar Sizin hər bir qərarınıza güvənir və apardığınız siyasəti dəstəkləyir. Əziz Prezidentimiz və hörmətli Mehriban xanım, Allahdan Sizə möhkəm cansağlığı, dövlətimizin və xalqımızın inkişafı naminə apardığınız şərəfli işlərinizdə müvəffəqiyyətlər arzulayırıq”.

Goranboy rayonundan Cəfər İbrahimli: “Cənab Prezidentimiz, mən Goranboy rayon Mübariz Fərmanov adına Xoylu kənd tam orta məktəbin 11-ci sinif şagirdiyəm. Əlaçıyam. Koronavirus infeksiyası

# "Siz bir daha sübut etdiniz ki, bütün dünyada yaşayan azərbaycanlıların qürur duyduğu lidersiniz"

## *Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir*

təhlükəsi ilə əlaqədar evdə qalmağımıza baxmayaraq, biz onlayn dərslər vasitəsilə təhsilimizdən geri qalmırıq. Bizə yaratdığınız bu şəraitə görə cənab Prezident, Sizə öz minnətdarlığımı bildirir və təşəkkür edirəm".

Cəlilabad rayonunun Muğan kəndindən Azad Dövlətov, Raqib Qürbətov, Ceyhun Rəhimov, Nusrət Filatov, İntiqam Qarayev, Cavid Qarayev, Eldar Hüseynov, Xanlar Adıgözəlov və Əfqan Dövlətov yazırlar: "Əziz və hörmətli Prezident, bu gün ölkəmizdə xalq-hakimiyyəti birliyi və həmrəyliyi müşahidə olunur. Azərbaycan xalqı pisi yaxşıdan, ağı qaradan seçməyi bacarır. Məhz Sizin düşünülmüş siyasətiniz və səyləriniz sayəsində biz kənd əhalisi davamlı sabitlik şəraitində yaşayır və fəaliyyət göstəririk. Əziz Prezidentimiz Allahdan Sizə və ailənizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq".

Quba rayonundan Xəyal Nuhbalayev: "Hörmətli cənab Prezident, bu ağır pandemiya günlərində xalqımızın yanında olduğunuz, qayğımıza qaldığınız, əhalinin maddi rifah halının yaxşılaşdırılması üçün hər cür tədbirlər gördüyünüz üçün mən bir Azərbaycan gənci olaraq, Sizə öz adımdan və ailəm adından təşəkkür edir, dərin minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun!".

Göygöl rayonunun Topalhəsənli kəndindən Çərkəz Həmzəyev: "Möhtərəm cənab Prezident, bütün dünyada ciddi həyəcan yaradan, yaşından, irqindən və dinindən asılı olmayaraq insanların həyatına son qoyan koronavirus pandemiyası adlı bəlaya qarşı bütün imkanlardan istifadə olunmaqdadır. Sizin bilavasitə rəhbərliyiniz altında ölkəmizdə vətəndaşların sağlamlığının qorunması naminə aparılan əvəzolunmaz tədbirləri çox yüksək qiymətləndiririk. Qısa bir zamanda yeni xəstəxanaların istifadəyə verilməsi, mövcud xəstəxanaların uyğunlaşdırılması, qoruyucu vasitələrin istehsalı, xəstələrin müalicəsi üçün tibb ocaqlarının lazımi avadanlıqlarla təmin olunması, canları bahasına xəstələri müalicə edən həkimlərin əməkhaqlarına əlavələr edilməsi, işləməyənlərə yardımların verilməsi, sosial iş yerlərinin açılması, sahibkarlara maliyyə dəstəyinin və güzəştlərin edilməsi və digər işlər çox təqdirəlayiqdir. Əziz Prezidentimiz, Azərbaycan vətəndaşları arasında itkilərin minimuma endirilməsi üçün gördüyünüz bütün işlərə görə ailəmiz adından Sizə minnətdarlığımızı bildiririk".




Qaradağ rayonunun Lökbatan qəsəbəsindən Zara Niftiyeva: "Hörmətli cənab Prezident, Siz uğura gedən yolda daim yanımızda olub, bütün çətinliklərdə öz köməyinizi əsirgəməyən dəyərli Prezidentimizsiniz. Bu çətin və şərəfli yolda Sizə daim uğurlar arzu edirəm. Pandemiya dövründə Azərbaycan xalqına dəstəyiniz, bütün şücaətləriniz göz qarşısındadır. Biz haqlı olaraq Sizinlə fəxr edirik. Cənab Prezident, Sizə bir daha uğurlar diləyir, ailəmiz adından dərin təşəkkürümüzü bildirirəm".

Bakının Yasamal rayonundan Taleh Mansurov: "Möhtərəm Prezident, bir gənc olaraq Sizə minnətdarlıq etməyi özümə vətəndaşlıq borcu bilərək bu təşəkkür məktubunu ünvanlayıram. Hörmətli Ali Baş Komandan, dünyamız həm siyasi, həm iqtisadi, həm də tibbi baxımdan ağır sınaqdan keçir. Dünyada supergüc hesab edilən ölkələrdə pandemiyanın ağır nəticələri artıq özünü göstərməyə başlayır. Dünyanın bu mənzərəsi fonunda ölkəmizdəki sabitlik, dövlətin vətəndaşlara yardımları Azərbaycanın bu pandemiyadan ən az zərərlə çıxacağının göstəricisidir. Bu gücün əsas səbəbi Sizin xalqımıza olan sevginiz, güclü iradənizdir. Danılmaz faktdır ki, Siz və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva dövlətimiz və xalqımız üçün bütün gücünüzlə çalışırsınız. Mən də bir Azərbaycan gənci olaraq daim Sizin siyasətinizi dəstəkləyir, Vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Tanrı Sizləri qorusun!".

# "Səfərlər yerlərdə məsuliyyəti artırır və regionların inkişafına töhfəsini verir"

***"Prezidentin həm regionlara səfəri, həm də ölkədaxili müəssisələrin, sosial obyektlərin açılışında şəxsən özünün iştirak etməsi ölkənin hansı şəraitdə olursa-olsun dinamik inkişafının bundan sonra da artacağı və post-pandemiya dövründə də uyğun olaraq insanlarımızın rifah halının yaxşılaşdırılmasına xidmət edəcək". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı İlham Məmmədov pandemiya dövründə ölkədə aparılan layihələri və Prezident İlham Əliyevin bölgələrə səfərini şərh edərkən deyib.***



Onun sözlərinə görə, pandemiya dünya iqtisadiyyatını həm iqtisadi, həm də sosial cəhətdən tamamilə iflic edib və ilk gündən bəzi ölkələr qlobal pandemiyaya qarşı mübarizə aparma yolları üzərində düşünür, həmçinin ölkəmizdə də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva çox dərin və düşünülmüş şəkildə əhalini xilas etmək, onların sağlamlığını qorunmaq istiqamətində addımlar atır: "Ölkədə sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən işlər, ölkə iqtisadiyyatının həm pandemiya vaxtı, həm də pandemiyadan sonrakı dövr üçün perspektivlərini müəyyən edən kompleks tədbirlərin görülməsi dünya üzrə bir nümunədir. Bu müddət ərzində Prezidentin rəhbərliyi ilə bir çox işlər görülüb. Bu müddədə istər yol çəkilişlərinin, istərsə də sosial obyektlərin tikintisi davam etdirilib. Elə bu günlərdə "Qobu Park-3" yaşayış kompleksinin istifadəyə verilməsi ilə məcburi köçkün və qaçqın əhalimizin həyat şəraitinin yaxşılaşdırılması və ilk dəfə olaraq yaşayış massivində əhalinin məşğulluğunun təmin olunması üçün atılan addımları xüsusilə qeyd etmək lazımdır. Bakı şəhəri ilə yanaşı, eyni zamanda Prezidentin bölgələrə də bu müddət ərzində səfəri oldu. Şamaxı səfərini xatırlasaq, burada tarixi, dini abidələrin, ziyarətgahların təmir olunması, insanların mənəvi dini inanclarının həyata keçirilməsi üçün, həm də ölkəmiz üçün tarixi əhəmiyyət kəsb edən ziyarətgahların təmir olunaraq əhalinin istifadəsinə verilməsi müstəsna addımlardır. Həmçinin, yolların çəkilməsi, yaşayış binalarının tikilməsi, eyni zamanda, Prezidentin Şamaxı şəhərində zəlzələdən zərər görmüş insanların mənzil şəraitinin yaxşılaşdırılması üçün görülən işlərlə yerində tanış olması, tapşırıq və tövsiyyələrini verməsi və elə bu günlərdə cəbhə bölgəsinə və təmas xəttinə yaxın yerləşən Tərtər şəhərinə səfəri də xüsusi əhəmiyyət daşıyır".

Millət vəkili bildirib ki, Prezident İlham Əliyev bölgələrə səfəri ilə bir daha göstərmiş oldu ki, hər bir işə şəxsən özü nəzarət edir, məsləhət və tövsiyyələrini yerindəcə verir: "Təbii ki, bu yerlərdə də məsuliyyəti artırır. Bu regionların inkişafına da öz töhfəsini verir. Bir çox sosial obyektlər açılır, həmin bölgədə yerləşən hərbi hissələrdə, Ağdam rayonunda yerləşən hərbi hissədə oldu, Tərtər rayonunda, həmin bölgənin gənclərinin, vətəndaşlarının sağlamlığının qorunması xidmət edən Olimpia Kompleksinin açılışında iştirak etdi. İnsanların məşğulluğunu təmin edən yeni iş yerlərinin açılması, Tərtərdə xalçaçılıq müəssisəsinin açılması və digər bu kimi müəssisələrin açılmasına şahid olduq. Bu nə qədər insanın, xüsusilə də, xanımlarımızın iş fəaliyyəti ilə əmin olunması deməkdir və Azərbaycanın milli mənəvi dəyərlərini özündə əks etdirən milli sərvətimiz olan xalçamızın istehsal olunmasına və yayılmasına xidmət edir.

Prezidentin həm regionlara səfəri, həm də ölkədaxili müəssisələrin, sosial obyektlərin açılışında şəxsən özünün iştirak etməsi ölkənin hansı şəraitdə olursa-olsun dinamik inkişafının bundan sonra da artacağı və post-pandemiya dövründə də uyğun olaraq insanlarımızın rifah halının yaxşılaşdırılmasına xidmət edəcək".

# Siyasi ekspert: "Azərbaycanın bir qarış torpağını da kimsəyə güzəştə getmək olmaz"

***Tərtər Olimpiya İdman Kompleksinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin nitqində yer alan fikirlər tarixi həqiqətlərin olduğu kimi ictimaiyyətə təqdim olunması ilə yanaşı, ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə siyasətinin mahiyyətini və bu siyasətin gerçəkləşdirildiyi böyük bir ərazinin sərhədlərini ortaya qoyur.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti məhz bu səbəbdən, öz nitqində xüsusi olaraq Ermənistanın terror dövləti olduğunu vurğuladı. Ermənilər öz siyasi məqsədlərinə çatmaq, əsassız iddialarını təmin etmək, başqa xalqların torpaqlarını, mədəni irsini mənimsəmək üçün tarix boyu siyasətlə terroru iç-içə saxlayıblar. Onun sözlərinə görə, dünyada mənfur faşizm ideologiyası üzərində formalaşan siyasi partiya və hərəkatlardan başqa elə bir siyasi təşkilat nümunəsi yoxdur ki, o, öz təməl ideoloji prinsiplərində başqa millətlərə nifrət aşılasın, onları məhv etməyə, yer üzündən silməyə çağırışlar etsin.

Ekspert əlavə edib ki, siyasətin terrorla çuğlaşması faktının qədimliyinə görə, hətta alman faşizm ideologiyasının baniləri belə ermənilərə həsəd apara bilərlər. Belə ki, siyasi faşizmin əsasını qoyan Almaniya Milli Sosialist Fəhlə partiyasının ilkin yaranma mərhələsi 1919-cu ilin yanvarına təsadüf etsə də, ermənilər mahiyyət etibarilə eyni prinsipləri təbliğ edən "Armenakan" partiyasını 1885-ci ildə yaradıblar və bu partiya Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları həyata keçirib. Tarixdə ilk dəfə olaraq, siyasi partiya proqramında terrora açıq şəkildə çağırış edilməsi ilə bağlı xüsusi müddəanın yer alması faktı da, yenə də ermənilərə məxsusdur. E.Mirzəbəyli vurğulayıb ki, ermənilərin 1987-ci ildə Cenevrədə yaratdıqları "Hnçak" partiyasının proqramının 4-cü bəndində qeyd olunur ki, "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

Siyasi ekspert bildirib ki, bu siyahıya 1890-cı ildə yaranan, əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "böyük Ermənistan" dövləti qurmaq olan "Daşnaksütyun" - erməni federativ inqilab partiyasının məramını və fəaliyyətini də əlavə etsək, mübaliğəsiz olaraq, erməni siyasi-terror təşkilatlarının faşizmin "ataları" olduğunu deyə bilərik.

"Məhz bu baxımdan, Azərbaycan torpaqlarında yaradılmış Ermənistan adlı dövlətdə faşistlərə abidə ucaldılması təsadüfi sayılmamalıdır. Ermənistanın Tərtər şəhərini, Ağdamın kəndlərini bombalaması, mülki əhalini hədəfə alması da, məhz faşizmin təzahürüdür. Prezidentin də qeyd etdiyi kimi erməni terrorizminin sərhədi, miqyası yoxdur və işğalçı-terrorçu Ermənistan bütün vasitələrdən istifadə edərək, 1918-ci ildən başlayaraq qəsb və işğal edilmiş tarixi Azərbaycan torpaqlarından bu torpaqların tarixi və hüquqi sahiblərinin izini silmək üçün bütün vasitələrə əl atır, hətta ekoloji terror törətməkdən belə çəkinmir" , - deyə Elçin Mirzəbəyli qeyd edib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin öz nitqində qeyd etdiyi kimi, "Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi hesabına həyata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur". Xatırladıb ki, 2016-cı il yanvarın 26-da Avropa Şurası Parlament Assambleyası tərəfindən "Azərbaycanın sərhəd rayonlarının sakinləri qəsdən sudan məhrum edilib" adlı qətnamə qəbul olunub. Qətnamədə qeyd olunur ki, "qəsdən süni ətraf mühit böhranı yaratmaq "ekoloji təcavüz" kimi qəbul edilməli və ekoloji fəlakət zonaları yaratmaq, həmçinin aidiyyəti əhalinin normal yaşamını çətinləşdirmək məqsədilə bir dövlətin digərinə qarşı düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir". Sənəddə, həmçinin "Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və Ermənistan hakimiyyəti su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırması" tələb olunur. Göründüyü kimi, bu qətnamənin qəbul edilməsindən 4 ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan Azərbaycana qarşı ekoloji terror siyasətini də davam etdirməkdədir. Amma bütün vasitələrlə Azərbaycanı ləkələməyə, ölkəmizi gözdən salmağa, ölkəmiz haqqında uydurmalar yaymağa, saxta məruzələr qəbul etdirməyə çalışan AŞPA özünün qəbul etdiyi qətnamənin icrasını belə işğalçı Ermənistandan tələb etmir, yaxud ortaq məraqlar səbəbindən edə bilmir.

"Bu isə AŞPA-nın bir təşkilat olaraq, öz nüfuzunu tamamilə itirdiyini, qəbul etdiyi sənədlərin isə kağız parçası olduğunu bir daha təsdiqləyir. Lakin buna baxmayaraq, Azərbaycan Prezidentinin səyləri və şəxsi nüfuzu sayəsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatların və bir çox ölkələrin yanaşmaları ölkəmizin mövqelərini də gücləndirir" , - deyə siyasi ekspert vurğulayıb.

O deyib: "Azərbaycan Prezidentinin tarixi hadisələri olduğu kimi dilə gətirməsi ötən əsrin əvvəllərində buraxılan yanlışlıqların bir daha təkrarlanmaması, tarixdən ibrətamiz nəticələr çıxarılması olduqca mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin də öz nitqində qeyd etdiyi kimi, İndiki Ermənistan respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələr göstərir ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. İrəvan qədim Azərbaycan şəhəridir.

Təəssüf adlarını tarixçi qoyan bəzi radikal müxalifət düşərgəsinin avantürist, maraq ovçusu olan təmsilçiləri, İrəvanın Azərbaycanlıların tarixi torpağı olduğu barədə həqiqətlərin üzərinə kölgə salmağa çalışırlar. O zaman sual olunur, əgər İrəvan Azərbaycan torpağı deyildisə, o zaman Azərbaycan Xalq Cümhuriyyəti hansı əsaslarla İrəvanın Ermənistana verilməsi ilə bağlı qərar qəbul etmişdi?

Ötən əsrin əvvəllərində Azərbaycan üçün torpaq itkisi ilə nəticələnən bu faktın olduğu kimi və ən yüksək səviyyədə Azərbaycan cəmiyyətinə təqdim olunmasının əsas səbəblərindən biri İrəvanın Azərbaycan torpağı olduğunu hüquqi və siyasi baxımdan əsaslandırmaqdır. Ortalıqda sənədlərlə təsdiqlənən təkzibolunmaz faktların olduğu halda bəzi "tarixçilərin" absurd iddialarla çıxış etməsini və tarixi hadisələrə erməni məntiqi ilə yanaşmalarını başa düşmək olmur.

Tarix sübuta yetirdi ki, ermənilər heç zaman torpaq iddialarından əl çəkməyəcəklər. Məhz bu baxımdan da, istənilən tarixi şəraitdə və vəziyyətdə Azərbaycanın bir qarış torpağını da kimsəyə güzəştə getmək olmaz. Tarixi, mədəniyyəti, potensialı, dövlətçilik ənənəsi olan bir xalq tarixin ən müxtəlif dönəmlərində özünə yeni dövlətlər yarada bilər, amma yeni torpaq yarada bilməz".

# Vətəndaşlar yaşayış yerlərini 102-dən icazə almaqla tərk edə bilərlər



Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisinin sakinləri həftəsonları yaşayış yerlərini və ya olduğu yerləri tərk etmək istədikdə Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinə müraciət etməlidir. Trend-in məlumatına görə, Baş Nazir Əli Əsədov vətəndaşlara müraciətində bildirib ki, bununla bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah qərar qəbul edib.

Sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə almaqla tərk edə bilər.

Qeyd edək ki, 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artımı səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq.

# "Təcili tədbirlər görülməsə..."



"Əhalinin davranışı hökumət üçün karantin rejimini yenidən sərtləşdirməkdən başqa variant qoymayıb. Yəni, karantin rejimini yenidən sərtləşdirəkmi, sərtləşdirməyəkmi deyə variant qalmayıb". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərli deyib. O bildirib ki, karantin rejiminin yumşaldılması, təəssüf ki, insanlar tərəfindən pandemiyanın bitməsi kimi qəbul edildi: " Adamlar o qədər sərbəstləşdilər, o qədər arxayın davrandılar ki, heç bir təbliğatı, təşviqatı dinləmədi, sosial məsafə gözləmədi, tibbi maskalardan istifadə etmədilər. Məhz ona görə də sərt karantin dövrü ilə indiki şəraitdə yoluxmanın intensivliyi baxımından ən azı 10 dəfə fərq var. Pandemiyanın ən kəskin vaxtında ölkədə yoluxma həddi 10, 20, 30 nəfər idisə, indi 200, 300 nəfər və daha artıqdır". Ekspert qeyd edib ki, COVİD-19-a yoluxma səviyyəsi elə bir həddədir ki, təcili tədbirlər görülməsə, vəziyyət tamamilə nəzarətdən çıxa bilər: "Başqa bir səbəb yoxdur, yeganə səbəb kimi insanların davranış qaydalarıdır. Ona görə də inzibati müdaxiləyə ehtiyac var, vəziyyət yenidən nəzarətə götürülməlidir. Əhalinin sağlamlığını qorumaq üçün bunlar vacib amillərdir".

# "Asiya İnkişaf Bankı ilə Azərbaycanın əlaqələri alqışlanmalıdır"



İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən millət vəkili Elman Məmmədov bunları deyib: "Ümumiyyətlə nəinki Asiya İnkişaf Bankı, eləcə də bütün beynəlxalq qurumlar etibar etmədikləri, dayanlıqlı vəziyyətdə olmayan, stabil olmayan ölkələrə, dövlətlərə, təşkilatlara heç bir yatırım etmirlər, kredit vermirlər və onlarla əməkdaşlıq etmirlər. Deməli Azərbaycan o sahədə etibarlı tərəfdaş kimi özünü təqdim edə bilib və beynəlxalq təşkilatların etimadını qazana bilib. Ona görə də əməkdaşlıq günü-gündən genişlənir və bundan sonra da genişlənəcək. Hesab edirəm ki, ötən gün keçirilən videokonfrans da yüksək səviyyədə dəyərləndirilməlidir. Bu ölkəmizin, dövlətimizin inkişafının xeyrinədir. Bu gün Azərbaycan regionun lider dövlətidir. Sadaladığım göstəricilərlə Azərbaycanla Ermənistanı müqayisə belə etmək olmaz və bu gülünc doğurar. Ermənistan bu sahədə həddindən artıq çox geridə qalmış və etibarsız bir partnyor kimi tanınır. Bu gün işğalçı ölkənin iqtisadiyyatı və bütün bank sistemi dağınıq vəziyyətdədir. Bir sözlə, mən Asiya İnkişaf Bankı ilə Azərbaycanın əlaqələrini yüksək qiymətləndirirəm və hesab edirəm ki, bu əməkdaşlıq alqışlanmalıdır".

***Ceyhun Rasimoğlu***

# "Operativ Qərargahın təklifi tamamilə doğrudur"

"Koronavirus pandemiyasının başladığı ilk günlərdə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında vaxtında və düzgün addımlar atdı. Əhalinin sağlamlığını qorumaq üçün görülən işlər, müəyyən yaş qrupuna daxil olan insanlara çölə çıxma qadağasının qoyulması, digər vətəndaşların mənzillərini sms-icazə ilə qısa müddətə tərk etməsi öz bəhrəsini verdi". Bunu SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov deyib. Onun sözlərinə görə, bütün dünya, ilk növbədə Ümumdünya Səhiyyə Təşkilatı vətəndaşları qorumaq üçün prezidentimiz tərəfindən görülən işlərə yüksək qiymət verdi, digər ölkələrə nümunə göstərdi. COVİD-19-a qarşı mübarizədə meydana gələn müsbət tendensiyalar, vətəndaşların münasibəti nəzərə alınaraq karantin rejiminin yumşalması istiqamətində addımlar atıldı: "Sərt karantin rejiminin yumşaldılmasından keçən qısa müddət ərzində koronavirusa yoluxma hallarının kəskin artması hamımızı ciddi şəkildə narahat etməlidir. Çox təəssüf ki, vətəndaşlarımız arasında COVİD-19-un ümumiyyətlə uydurma olduğunu iddia edənlər, infeksiyadan qorunma tədbirlərinə məhəl qoymayanlar kifayət qədərdir. Məhz bu münasibətin nəticəsində son 10 gündə yoluxma və ölüm hallarının artması, sağalan insanlara nisbətən xəstələnənlərin sayında müşahidə edilən təhlükəli tendensiya qəti addımlar atmağı tələb edir".

A.Səmədov bildirdi ki, operativ qərargahın həftə sonları vətəndaşlara evdən çıxma qadağasının qoyulması barədə təklifi tamamilə doğrudur və hamı tərəfindən dəstəklənməlidir: "Vətəndaşlarımız özlərinin və doğmalarının sağlamlığını qorumaq üçün tibbi maskalardan istifadə etməli, gigiyena ilə bağlı tələblərə əməl etməlidirlər. Bu baxımdan dövlət rəhbərlərimizin, ilk növbədə Möhtərəm prezidentimizin rəsmi tədbirlərdə belə maska ilə iştirak etməsi hamımıza örnək olmalıdır. Əks halda koronavirusla bağlı son dərəcə təhlükəli tendensiyanın qarşısını almaq mümkün olmayacaq və daha kəskin addımlar atmaq məcburiyyətində qalacağıq".

***Gülyana***

# Vüqar Rəhimzadə: “Azərbaycan mənşəli toponimlər mərhələ-mərhələ erməniləşdirilərək təcavüzə məruz qalıb”

***XX əsrin əvvəllərində bu gün Ermənistan adlandırılan ərazidəki 2310 coğrafi addan 2000-i türk mənşəli olub. Məhz həmin ərazidə və Dağlıq Qarabağda zaman-zaman Azərbaycan tarixinə aid toponimlər kütləvi şəkildə dəyişdirilib. Ona görə də toponimlərimiz haqqında ictimaiyyətimiz, xüsusilə gənc nəsil daha məlumatlı olmalıdır. Bu mənada cənab Prezident İlham Əliyevin Tərtərə səfəri zamanı rayon ictimaiyyəti ilə görüşündə toponimlər məsələsini diqqətdə saxlaması hər bir Azərbaycan vətəndaşı, xüsusilə tarixçilər qarşısında mühüm vəzifələr qoyur.***



Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, indiki Ermənistan ermənilərin yox, türk mənşəli tayfaların yaşadığı ərazi olub: “Buna görə də 1826-1828-ci ilə qədər bu ərazidəki yaşayış məntəqələrinin hamısının adı türk mənşəlidir. 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülüb. 1893-1895-ci illərdə isə indiki Ermənistana 900 min erməni köçüb. Yalnız bundan sonra İrəvan quberniyasında ermənilərin sayı azərbaycanlıların sayından çox olub. Ermənilərin növbəti addımı türk mənşəli toponimləri dəyişdirmək olub. Bəzi adları tərcümə ediblər, bəzilərinə yeni erməni adları qoyublar.”

“Toponimlərin dəyişdirilməsi ilə bağlı müəyyən tədqiqatlar aparılsa da, bütün bunlar yetərli deyil”, - söyləyən Vüqar Rəhimzadə əlavə edib ki, bu sahədə tədqiqat işlərinin davam etdirilməsi və gənclərə çatdırılması həm tariximizin qaranlıq səhifələrinə işıq salınması, həm də Ermənistanın təcavüzkar siyasətinin ifşası baxımından əhəmiyyətlidir: “Ermənistanın ölkəmizə qarşı apardığı informasiya müharibəsi çərçivəsində irəli sürdüyü əsassız iddialara tutarlı cavab vermək üçün müdafiə olunmaq yox, əks-hücuma keçmək lazımdır. İşğalçı Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə iddialarının əsassız olduğunu göstərməyin təsirli yollarından biri də ermənilərin bu diyara köçürüldüklərini və burada olan toponimləri sonradan dəyişdirmələrini sübut etməkdir. Bugünkü Ermənistan ərazisindəki toponimlərin nəşr olunan xəritələrdə və digər sənədlərdə Azərbaycan mənşəli adlarının göstərilməsi yaxın tariximizin unutdurulmaması baxımından da vacibdir”.

Baş redaktor qeyd edib ki, xalqımıza məxsus toponimlərin dəyişdirilməsi məsələsi araşdırılıb və bəlli olub ki, Azərbaycan mənşəli toponimlər mərhələ-mərhələ erməniləşdirilərək təcavüzə məruz qalıb. Bununla da Ermənistan tərəfindən təkcə işğal olunmuş ərazilərdə yerləşən 300-dək coğrafi ad dəyişdirilərək erməniləşdirilib: “Ermənistan tərəfindən Azərbaycan toponimlərinin saxtakarlıq yolu ilə dəyişdirilməsi və müxtəlif üsullarla uydurma erməni adları ilə əvəz edilməsi bir neçə üsulla baş verib. Birincisi, Azərbaycan mənşəli toponimlər bütövlüklə erməni adları ilə əvəz edilib. İkincisi, keçmiş sovet dövründə dəyişdirilən bəzi toponimlərin erməni yazılış variantı saxlanılıb. Üçüncüsü, işğal altında olan ərazilərin toponimlərindən başqa respublikanın digər yer adlarına da təcavüz edilərək toponimlər təhrif edilməklə qismən dəyişdirilib. Dördüncüsü, hərfi tərcümə nəticəsində adlar dəyişdirilib. Beşincisi, bir qisim toponimlər isə bəzi fonetik dəyişdirilməyə məruz qalmaqla hazırda mövcud olduğu kimi saxlanılıb”.

“Göründüyü kimi, Ermənistan təkcə Azərbaycanın torpaqlarına deyil, eyni zamanda, tarixinə, toponimlərinə də təcavüz edib”, - söyləyən V.Rəhimzadə bildirib ki, bu səbəbdən də Azərbaycan mənşəli coğrafi adların düzgün şəkildə dünya ictimaiyyətinə çatdırılması üçün daha əzmlə mübarizə aparılmalı, müntəzəm olaraq saytlarda Ermənistan tərəfindən təcavüzə uğrayan Azərbaycan toponimlərinin dəyişdirilməsi ilə bağlı yayılan saxta informasiyalar haqqında müvafiq qurumlara vaxtında məlumat verilməli və onların sıradan çıxarılmasına qarşı müntəzəm surətdə tədbirlər görülməlidir. Bu işdə əlbəttə ki, mətbuat nümayəndələrinin və tarixçilərin üzərinə daha böyük məsuliyyət düşür.

## “İrəvanla bağlı fikirlər hücumedici diplomatiyanın parlaq nümunəsidir”



“Dövlət başçısı Prezident İlham Əliyevin İrəvanla bağlı səsləndirdiyi fikilər əsl hücumedici diplomatiyanın parlaq nümunəsi idi”. Bu sözləri SİA-ya açıqlamasında Qərbi Kaspi Universitetinin “Siyasi Elmlər” kafedrasının professoru, politoloq Fikrət Sadıxov Prezident İlham Əliyevin Tərtər Olimpia İdman Kompleksinin açılışında səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Ermənistanın xarici siyasəti əksər hallarda təxribatçı addımlardan ibarət olub və keçmiş rejimin əvəzinə gələn Nikol Paşinyan komandası heç də keçmiş komandadan fərqli deyil: “Onların mütəmadi olaraq təxribatlar törətməsinin və danışıqlardan yayınmasının əsas səbəbi beynəlxalq hüququn Azərbaycanın tərəfində olmasıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır, bütün beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən, əlbəttə ki, bu da Ermənistanı qıcıqlandırır. Çünki, hər kəsin bunu eşitməsi və bununla üzləşməsi Paşinyanı qane etmir. Ermənistanın indiki siyasi istiqaməti sadəcə Azərbaycanla danışıqlarda iştirak etməklə müxtəlif fantastik fikirlər irəli sürməkdən ibarətdir. Ermənistanın siyasi rəhbərliyinin birtərəfli və təxribatçı siyasəti artıq nəinki Azərbaycanı, hətta, ATƏT-in Minsk qrupunun həmsədrlərini də qıcıqlandırır. Artıq, ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlərin nümayəndələri birmənalı şəkildə Dağlıq Qarabağda separatçılar tərəfindən, qondarma Dağlıq Qarabağ qurumu rəhbərliyi tərəfindən keçirilən seçkiləri tanımadı və bu əvvəlkilərdən daha sərt şəkildə səsləndi”.

Fikrət Sadıxovun fikrincə, beynəlxalq aləm bu seçkiləri tanımamaqla yanaşı seçkilərin keçirildiyi ərazinin qəti surətdə Azərbaycana məxsus olduğunu bildirdi və bütün bunları dinc danışıqlara mane olan proseslər kimi qiymətləndirdi: “Reallıq bundan ibarətdir və əlbəttə ki, dövlət başçısı da kompleksin açılışında bir fikri də səsləndirdi ki, hazırkı İrəvan şəhəri də Azərbaycanın torpaqları kimi vaxtilə ermənilərə verilmiş bir şəhər və ərazidir. Onlar dəfələrlə, uzun illər ərzində Naxçıvanın, Gəncənin, Bakının, Dağlıq Qarabağın ermənilərə məxsus olduğunu bildiriblər və bu fikiləri yazılarında da qeyd ediblər. Düşünürəm ki, dövlət başçısı Prezident İlham Əliyevin İrəvanla bağlı səsləndirdiyi fikilər əsl hücumedici diplomatiyanın parlaq nümunəsi idi”.

## Azərbaycanda 48 minə yaxın doğum qeydiyyata alınıb



Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən cari ilin 5 ayı ərzində 48 minə yaxın doğum dövlət qeydiyyatına alınıb.SİA-nın məlumatına görə, bu barədə Ədliyyə Nazirliyində BMT-nin Uşaq Fondu (UNİCEF) ilə birgə Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Uşaqların ədliyyə sisteminə çıxışı” mövzusunda videokonfrans formatında keçirilən görüşdə bildirilib. Qeyd olunub ki, o cümlədən qeydiyyatdan kənarda qalmış uşaqlar müəyyən olunaraq, onlara və səyyar qaydada tibb müəssisələrində ümumilikdə 700-ə yaxın doğum haqqında şəhadətnamə verilib.

Qeyd edək ki, sözügedən tədbirdə Ədliyyə, Daxili İşlər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Baş Prokurorluğun, Ombudsman Aparatının məsul şəxsləri, hakim, Vəkillər Kollegiyasının nümayəndəsi, UNİCEF-in Azərbaycandakı ofisinin proqram rəhbəri və vətəndaş cəmiyyətinin üzvləri iştirak ediblər.

# “Ermənistanı güc hesabına danışıqlar masasına yerləşdirmək lazımdır”

***“Biz öz səlahiyyətimizdən və hüququmuzdan istifadə edərək bu münaqişəni məhz anti-terror əməliyyatları keçirməklə həll etmək iqtidarındayıq”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü olan deputatı Arzu Nağıyev deyib.***



Millət vəkili bildirib ki, Tərtər Olimpia Kompleksinin açılışında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində toxunduğu bir neçə məsələlər oldu: “Əsas məqam ondan ibarətdir ki, ümumiyyətlə, Ermənistanın tarixi, eyni zamanda da Dağlıq Qarabağın tarixi ilə bağlı Prezident İlham Əliyev çox mühüm bir açıqlama verdi. Bir daha qeyd etdi ki, tarixdə çox uzağa getməyə ehtiyac yoxdur. Azərbaycan ərazilərinin vaxtilə ermənilərə verilməsi, eyni zamanda, Dağlıq Qarabağ ərazilərinə ermənilərin köç etməsi onların özləri tərəfindən də dəfələrlə etiraf olunub. Onlar bir daha bilməlidirlər ki, bu ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Prezidentin çıxışında ən mühüm məqamlardan biri bu idi”.

Onun sözlərinə görə, digər bir məsələ Dağlıq Qarabağ münaqişəsinin həllidir və Prezident İlham Əliyev qeyd etdi ki, bu gün artıq birinin həbs edildiyi, gələcəkdə də digərinin həbs ediləcəyi ehtimal olunan, keçmiş Dağlıq Qarabağ qondarma qurumunun rəhbərlərinin həqiqətən də cinayətkar olduqlarını həm erməni xalqı, həm də bütün dünya bildi: “Məlumdur ki, bu şəxslər hansı cinayətləri törədib və bunun hesabına Ermənistanda, hətta, hakimiyyətə gəliblər. Digər məsələ ondan ibarədir ki, biz ATƏT-in Minsk qrupu həmsədrlərinin sülh yolu ilə həll olunması istiqamətində müvafiq addımlar atdığını bilirik və bu istiqamətdə də biz sülhü dəstəkləyirik. Lakin, Azərbaycan güclü bir dövlətə çevrilir və güc hesabına onları danışıqlar masasına yerləşdirmək lazımdır. Əks halda biz öz səlahiyyətimizdən və hüququmuzdan istifadə edərək bu münaqişəni məhz anti-terror əməliyyatları keçirməklə həll etmək iqtidarındayıq. Həm qlobal, həm regional oyunçular və dövlətlər bizi dərk etməli və başa düşməlidirlər. Həmin an yetişəndə bu məsələnin həlli istiqamətində heç kəsdən soruşmadan müvafiq addımlar atacağıq. 2016-cı ildə Aprel hadisələrində əməliyyatların dayandırılmasını bizdən necə xahiş edirdilərsə artıq bu məsələ tək regional dövlətlər üçün deyil, qlobal dövlətlər üçün də görk olmalıdır. Biz bu məsələni öz gücümüzə həll eməyə qadirik”.

*Nigar Məmmədova*

## “Maliyyə və əmlak amnistiyasının sürətləndirilməsi çox vacibdir”

“Dünya yeni bir böhrana doğru gedir. Maliyyə və əmlak amnistiyası ilə bağlı görülən işlərin sürətləndirilməsi çox vacibdir”. məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat Əli Məsimli deyib. O bildirib ki, bu istiqamətdə sovet dövründə məlumatların az daxil olmasının səbəbləri aydınlaşdırılmalı və aradan qaldırılmalıdır: “Kim işdən çıxarılırsa, çoxlu pullar, milyonlar çıxır. Büdcəyə əlavə vəsaitlərin daxil olmasının yolu tapılmalıdır”.

# Erməni qoşunları tərəfindən Şuşanın işğal edilməsi barədə məlumat Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan icmasının rəsmi bəyanatı kimi BMT-də yayılıb



***Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev Ermənistanın daimi nümayəndəsinin 20 may tarixli məktubuna cavab olaraq yazdığı məktub BMT-nin Baş katibinə göndərilib. Ermənistan nümayəndəsinin məktubunda erməni tərəfin qondarma "arsax xalqının azadlıq uğrunda mübarizəsi" və Şuşa şəhərinin "azad edilməsi" barədə cəfəng arqumentlər gətirilir. Gizli deyil ki, belə cəfəngiyatın yayılması sürpriz sayılmamalıdır, çünki rəsmi Yerevan özünün hərbi təcavüzünə və Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinin 20 faizinin işğal edilməsinə həmişə və hər vasitə ilə haqq qazandırmağa çalışıb. Erməni tərəfinin yaydığı yalan informasiya cavabsız qalmayıb.***

AZƏRTAC xəbər verir ki, Yaşar Əliyevin BMT Baş katibinə müraciətində deyilir: "Ermənistanın daimi nümayəndəsinin 2020-ci il 20 may tarixli məktubuna (A/74/862-S/2020/425) istinadla bir daha bildirmək istərdim ki, biz Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ regionunda Ermənistan tərəfindən qanunsuz yaradılmış oyuncaq rejim adından müxtəlif sənədlərin yayılmasının davam etməsinə qəti etiraz edirik. Belə sənədlər bəsit saxtakarlıq və ifrat sinizm nümunəsi olmaqla bərabər, onların hüquqi qüvvəsi yoxdur və lap əvvəldən rədd edilməlidir. Təcavüz, etnik təmizləmələr və kütləvi qətllər nəticəsində yaradılmış rejimin saxlanması faktı açıq-aşkar göstərir ki, Ermənistan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsindən və beynəlxalq hüquq normalarından irəli gələn vəzifələrini yerinə yetirməkdən imtina edir. Beynəlxalq birlik Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti kollektiv şəkildə tanımamaqdan ibarət ardıcıl və prinsipial mövqeyini bu yaxınlarda bir daha təsdiq etdi, 2020-ci il martın 31-də və aprelin 14-də Ermənistanın rejissorluğu ilə oyuncaq rejimin qondarma qurumlarına qondarma "seçkiləri" rədd etdi və onları etibarsız hesab etdi.

Mən həm də bizim 2020-ci il 11 may tarixli məktubumuza (A/74/851-S/2020/388) istinad etmək və Şuşa şəhərinin işğalının iyirmi səkkizinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun Azərbaycan icmasının bəyanatını bu məktuba əlavə etmək istərdim (bəyanatın mətni əlavə olunur). Bu məktubun və ona qoşma sənədlərin Təhlükəsizlik Şurasının sənədi kimi gündəlikdəki 32, 37, 68, 70, 75 və 83-cü bəndlər üzrə Baş Assambleyanın sənədi kimi yayılmasına görə sizə minnətdar olaram".

Yaşar Əliyevin məktubuna Şuşa şəhərinin işğalının iyirmi səkkizinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun Azərbaycan icmasının bəyanatı da əlavə edilib. Bəyanatda deyilir: "1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Şuşa şəhəri Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ən mühüm strateji yerlərdən biri idi. İşğal nəticəsində Şuşa şəhəri və Şuşa rayonunun 30 kəndi viran edilib, 195 dinc sakin qətlə yetirilib, 165 nəfər yaralanıb, 58 adam itkin düşüb, Şuşa rayonunun 24.000-dən çox sakini köçkün vəziyyətinə düşüb və Azərbaycanın 58 rayonunda məskunlaşıb. Nadir şəhər arxitekturası ilə fərqlənən Şuşada 17 məhəllə vardı: Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dördlər qurdu, Hacı Yusifli, Dörd çinar, Çöl qala, Merdinli, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı və Təzə məhəllə. Hər məhəllədə hamam, məscid və bulaq vardı.

Ermənistan silahlı qüvvələri tərəfindən Şuşanın işğalı nəticəsində 25 məktəb, 31 kitabxana, 20 tibb müəssisəsi, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institutun filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turizm bazası, 2 mehmanxana, Azərbaycan Dövlət Xalça Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziya Mərkəzi, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası və Uşaq Sağlamlıq Mərkəzi qarət edilib, yandırılıb və dağıdılıb.

Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan Şuşanın işğalından 28 il keçir. Biz ümidimizi itirmir və inanırıq ki, hökmən Şuşaya qayıdacaq, viran olunmuş şəhərimizi bərpa edəcəyik. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun 80.000 nəfərdən çox üzvi olan Azərbaycan icmasının, o cümlədən Şuşa rayonunun Azərbaycan icmasının 30.000 nəfərdən çox nümayəndəsinin adından beynəlxalq birliyi Ermənistanın Azərbaycan xalqına qarşı bu gün də davam edən təcavüzünə son qoymağa və işğal faktına obyektiv qiymət verilməsi üçün ölkəmizin ədalətli mövqeyini dəstəkləməyə çağırırıq.

Bəyan edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli yolla nizamlanması yalnız erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasından və etnik təmizləməyə məruz qalmış azərbaycanlıların doğma yurdlarına qayıtmasından sonra mümkündür. Biz, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun Azərbaycan icması Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində bu regionun erməni icması ilə sülh şəraitində yaşamağa hazırıq. Yalnız bu halda regionda davamlı və ədalətli sülhü təmin etmək mümkün olacaq".

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü il aprel-noyabr aylarında Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasını pisləyən, erməni silahlı qüvvələrinin qeyd-şərtsiz və dərhal çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün şərait yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Assambleyası beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə edilmiş mövqeyini bir daha təsdiq edən 62/243 nömrəli qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının bu qətnamələri əsasında müxtəlif ölkələrin və beynəlxalq təşkilatların qanunverici orqanları tərəfindən erməni işğalçı qüvvələrin Azərbaycandan çıxarılmasını tələb edən onlarca başqa qətnamə qəbul edilib.

# "Azərbaycanın müsbət reputasiyası var"



Azərbaycan bir neçə maliyyə qurumları ilə əməkdaşlıq edir ki, bunların içərisində iri korparasiyalar da var və həmin beynəlxalq qurumlara Azərbaycanlıqla əməkdaşlıqlar faydalıdır. Bu sözləri SİA-ya müsahibəsində "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Mərkəzin rəhbəri qeyd edib ki, həmin qurumlara ölkəmizlə əməkdaşlıq ona görə faydalıdır ki, ayrılan kreditlər vaxtlı-vaxtında ödənilir və Azərbaycanın buna imkanı çatır.

"Azərbaycan o ölkələrdən deyil ki, hardansa kredit və ya borc alıb onu qaytara bilməsin. Bütün beynəlxalq maliyyə qurumları da bilir ki, Azərbaycanın kifayət qədər maliyyə resursları var. Bilirlər ki, Neft Fondunda ən azı 50 milyard dollara yaxın pul var və biz heç kimə borclu qalmayacağıq. Hətta indiki ağır vəziyyət olsa da, epidemiya ilə bağlı bütün ölkələrin iqtisadiyyatı ağır vəziyyətdə olsa da, Azərbaycana da bunun müəyyən qədər mənfi təsiri olsa da yenə də görürük ki, beynəlxalq maliyyə qurumları Azərbaycana kreditlər ayırırlar. Çünki, bilirlər ki, neçə illərdir, Azərbaycanın müsbət reputasiyası var və Azərbaycan aldığı kreditləri vaxtlı-vaxtında faizi ilə də qaytarır. Azərbaycanın bu kreditləri almaqda məqsədi isə müxtəlif sosial və iqtisadi layihələri reallaşdırmaqdır. Baxmayaraq ki, yenə də təkrar edirəm epidemiya ilə bağlı müəyyən çətinliklər var, amma Azərbaycan prezidenti bu layihələrin birini də ixtisara salmır. Özü də deyir ki, əgər Azərbaycan sosial yönümlü dövlətdirsə, bütün bu sosial layihələr bütün çətinliklərə baxmayaraq həyata keçirilməlidir və bu layihələrin həyata keçirilməsi məqsədi ilə də beynəlxalq maliyyə qurumlarından kreditlər alır və bu kreditlər də zavod, fabrik, yeni müəssisələrin tikintisinə, yeni iş yerlərinin açılmasına istiqamətlənir", deyə Elxan şahinoğlu bildirib.

***İnam Hacıyev***

# Ali təhsil müəssisələrinə subbakalavrların ərizə qəbulu davam edir



Ali təhsil müəssisələrinə subbakalavrların iyunun 1-dən başlanan ərizə qəbulu davam edir. Dövlət İmtahan Mərkəzindən (DİM) AZƏRTAC-a bildirilib ki, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu iyulun 10-dək internet vasitəsilə aparılır. Subbakalavrlar internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə daxil olub, "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər. Bu gün saat 12:30-a olan məlumata görə, 3685 subbakalavr elektron ərizəsini təsdiqlədib.

Xatırladaq ki, subbakalavra aid təhsil məlumatları "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən avtomatik əldə olunur. Bu məlumatları tam olmayan subbakalavrlar elektron ərizəsini təsdiq etmək üçün ötən ildən fərqli olaraq məzunu olduqları orta ixtisas təhsili müəssisələrinə getmirlər. Subbakalavr elektron ərizəsinə daxil olub "yadda saxla" düyməsini basdıqdan sonra bitirdiyi orta ixtisas təhsili müəssisəsinə avtomatik elektron sorğu göndəriləcək. Tələb olunan məlumatlar orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirildikdən sonra subbakalavra "SMS" xəbərdarlıq göndəriləcək. Təhsil müəssisələri sistemə daxil edilmiş bu məlumatların həqiqiliyinə görə məsuliyyət daşıyır. Qeyd olunan tarixlərdə ərizəsini təsdiq etməyən subbakalavrlar müsabiqəyə buraxılmayacaqlar.

Subbakalavr "Şəxsi kabinet"ində qeyd olunan mobil telefon nömrəsi özünə məxsus deyilsə və ya nömrə dəyişilibsə, "Şəxsi kabinet"dəki "Əlaqə məlumatları" bölməsində mobil telefon nömrəsində düzəliş etməlidir. "SMS" xəbərdarlıq aldıqdan sonra subbaklavr elektron ərizəsinə daxil olub onu təsdiq etməlidir.

# Elşad Mirbəşiroğlu: "Azərbaycan da sosial şəbəkələrin ən xoşagəlməz təsirlərinə məruz qalan ölkələrdən biridir"



"Sosial şəbəkələrin bu gün insan həyatının ayrılmaz bir hissəsinə çevrilməsi danılmaz faktdır. Müasirləşən dünyada münasibətlər sistemi dövrün informasiya-kommunikasiya mexanizmlərinə inteqrasiya ilə şərtlənir". Bu fikirləri Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. E.Mirbəşiroğlu bildirib ki, son illər hədsiz dərəcədə kütləviləşən sosial media resursları, sanki, real aləmə paralel bir virtual dünya formalaşdırıb və hər bir insan özünü bu və ya digər formada həmin virtual aləmin bir parçası kimi hiss edir.

Deputatın sözlərinə görə, müasir dünyada hər kəsin, bir növ, informasiya istehsalçısı kimi çıxış edə bilməsi sosial media vasitələrini əvəzolunmaz platforma halına gətirsə də, onun mənfi təsirləri də mövcuddur: "Bu platformada münasibətlər sistemi hüquqi müstəvidə tənzimlənmədiyi təqdirdə, sosial şəbəkələr terrorizmin, şiddət və nifrətin təbliğ olunması, şəxsiyyətin şərəf və layaqətinin alçaldılması, habelə narkotik vasitələrin internet üzərindən satılması, süni yollarla kütləvi narazılığın yaradılması, vətəndaş müharibələri və s. kimi ağır fəsadlara zəmin yarada bilir".

Sosial şəbəkələrin məsuliyyətsizliyinin artıq real təhlükəyə çevrildiyini vurğulayan E.Mirbəşiroğlu qeyd edib ki, sözügedən sahədə bu gün müşahidə olunan ən aktual problemlərdən biri paylaşılan məlumatlara görə sosial şəbəkə rəhbərliyinin cavabdehlik daşımamasıdır: "ABŞ Prezidenti Donald Trampın imzaladığı sonuncu sərəncam isə həmin müddəanı dəyişdirmək məqsədi daşıyır. Yəni artıq sosial şəbəkələrin rəhbərliyi saxta profillərdən yayılan nifrət, şiddət, terrorizm təbliğatına, böhtanlara, təhqirlərə, fərdin şərəf və ləyaqətinin pozulması faktlarına, habelə xalqların və dövlətlərin taleyinə təsir göstərə biləcək zərərli məlumatların yayılmasına görə məsuliyyət daşıyacaqlar. Onu da qeyd etmək lazımdır ki, Donald Trampın bu təşəbbüsünə dünya dövlətləri tərəfindən böyük dəstək nümayiş olunmaqdadır".

Onun sözlərinə görə, sosial şəbəkələrlə bağlı universal standartların tətbiq olunmasını zəruri hesab edən qlobal tendensiya gedir: "Azərbaycan da sosial şəbəkələrin ən xoşagəlməz təsirlərinə məruz qalan ölkələrdən biridir. Bütün neqativ hallara baxmayaraq, ölkəmizdə sosial şəbəkələrin fəaliyyətini məhdudlaşdıran heç bir addım atılmayıb. Hesab edirəm ki, insanların sosial media vasitələrindən istifadəsinə tamamilə dözümlü yanaşan Azərbaycan dövləti, eyni zamanda, sosial şəbəkələrin fəaliyyətini tənzimləyən universal mexanizmlərin formalaşmasına dəstək olmalı və özünün qanunvericilik bazasını bu istiqamətdə təkmilləşdirməlidir".



# COVID-19-a yoluxan Paşinyan niyə Rusiyadan qaçır?

***"Paşinyanın reytinqi çox aşağıdır, onun insanlarla ünsiyyət qurmaq üçün mövzusu yoxdur və belə olduqda Paşinyan hər bir fürsətdən istifadə edərək publik səhnədən aralanmağa macal tapır". Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert İlqar Vəlizadə Ermənistanın Baş naziri Nikol Paşinyanın ölkənin xarici siyasətinin aparılmasında arxa plana çəkilməsi və xarici siyasətdə passiv funksiya yerinə yetirməsinin səbəblərindən danışarkən deyib.***

Onun sözlərinə görə, ilk növbədə Nikol Paşinyanın virusa yoluxması Ermənistan səhiyyə sisteminin vəziyyətindən xəbər verir və Ermənistanın Baş nazirinin COVID-19-a yoluxması ölkədəki pandemik vəziyyətin gərginliyindən xəbər verir, bu məqamda sıravi vətəndaşların vəziyyəti isə müzakirə mövzusu bel deyil:

"Ermənistanın daxilində sosial problemlərin kəskin artması Nikol Paşinyanı və Ermənistan hakimiyyətini ölkənin daxilindəki problemlər qismində öz girovunda saxlayır. Bu ölkə və bu hakimiyyət daxili problemlər fonunda, xüsusilə də, əhəmiyyətli dərəcədə önəm kəsb edən sosial problemlərlə daha məşğul olmağa məcburdur. Bu problemlərin artması ölkənin xarici nüfuzundan danışmağa heç imkan vermir. Daxili gündəm cəmiyyətin əsas tələbatını ödəməklə məşğuldur. Yaranmış vəziyyət Ermənistanın xarici siyasətinə də təsir edir. Hazırda Ermənistan xarici siyasətində dayaq axtarır. O cümlədən də, maddi dayaq axtarışındadır. Çünki, daxili maddi imkanlar tükənir və xaricdən daxilolmalar da azalıb. Belə vəziyyətdə yalnız xarici dəstəkdən və kreditdən danışmaq olar".

Politoloq bildirib ki, Nikol Paşinyan üçün əsas mənbə Rusiya idi və Rusiya ilə də münasibətlərin gərginləşməsi, digər tərəfdən Paşinyanın koronavirusa yoluxması, Rusiyaya gedə bilməməsi, əlbəttə ki, onların məhdud olan xarici siyasətini daha da daraldır:

"İndi gündəmdə olan əsas məsələ qazın qiymətinin endirilməsidir. Son bir il və il yarım ərzində Ermənistan-Rusiya münasibətlərində qaz məsələsi xüsusi əhəmiyyət kəsb edir. Əgər Paşinyan virusa yoluxmasa idi o, mütləq Moskvada bu məsələni müzakirə edəcəkdi. Lakin, Paşinyan bu fürsəti də əldən buraxdı. Bu onu göstərir ki, Ermənistanın həm daxili, həm də xarici siyasətinin gərginləşməsi fonunda Paşinyanın əlehdarlarının mənbələri, dayaqları və tərəfkeşlərinin mövqeyi möhkəmlənir və daxili səhnədə Paşinyana qarşı müxtəlif ssenarilərin reallaşmasına imkan verir".

Paşinyanın COVID-19-a yoluxmasını əsas götürərək ictimaiyyət qarşısına çıxmaqdan qaçmasının və xarici siyasi aktivliyini dayandırmasının uğursuz çıxışları ilə nə dərəcədə əlaqədar olduğu haqqında danışan İlqar Vəlizadə bildirib ki, bundan sonra Paşinyan insanları stationlara yığa bilməz, onun reytinqi çox aşağıdır, onun insanlarla ünsiyyət qurmaq üçün mövzusu yoxdur və belə olduqda Paşinyan hər bir fürsətdən istifadə edərək publik səhnədən aralanmağa macal tapır.

***Nigar Məmmədova***

# Ermənistanda xəstələrin müalicəsinə səhiyyə sisteminin gücü çatmır



Ermənistanda son sutka ərzində 697 yeni yoluxma faktı qeydə alınıb. SİA-nın məlumatına görə, bu barədə ölkənin baş naziri Nikol Paşinyan sosial media hesabında danışıb. Onun sözlərinə görə, 24 saat ərzində 9 nəfər infeksiya səbəbilə ölüb. Baş nazir bildirib ki, artıq xəstələrin müalicəsinə səhiyyə sisteminin gücü çatmır. Paşinyan həmçinin, qeyd edib ki, Ermənistanda ictimai məkanlarda maska taxmaq məcburi olacaq. Xatırladaq ki, bu günə qədər ölkədə 10 min 524 nəfər virusa yoluxub, 170 nəfər ölüb.

# Lukaşenko Belarusa yeni Baş Nazir təyin edib



Belarus Prezidenti Aleksandr Lukaşenko ölkənin yeni Baş Nazirini təyin edib. AZƏRTAC BELTA informasiya agentliyinə istinadla xəbər verir ki, ölkə Prezidentinin sərəncamı ilə Roman Qolovçenko Belarusun yeni Baş Naziri təyin olunub. Buna qədər o, Belarus Hərbi Sənaye Dövlət Komitəsinin sədri vəzifəsində çalışıb. Qeyd edək ki, iyunun 3-də Belarus Prezidenti Aleksandr Lukaşenko hökumətin buraxılması haqqında qərar verib.



# Türkiyəli mütəxəssis: ABŞ üçün xaos qapıdadır

ABŞ üçün xaos qapıdadır. SİA-nın məlumatına görə, bu sözləri türk hərbi mütəxəssis Abdullah Ağar səsləndirib. Qaradərili Corc Floydun Minneapolis şəhər polisi tərəfindən zorakılıqla öldürülməsinə etiraz olaraq baş qaldıran aksiyalar barədə danışan mütəxəssis bildirib ki, dövlət iradəsini vətəndaşa göstərmək üçün sərtləşir: "Əgər hüquq-mühafizə orqanları ortaya çıxan qeyri-sabitliyi nəzarət altına ala bilməsə, iş daha çox dərinləşib xaosa çevriləcək. Hazırda bunu demək üçün erkəndir, amma belə bir ehtimal da mümkündür.

Olayı pandemiya prosesi daxilində şərh etməkdə fayda var. ABŞ pandemiyadan son dərəcə dərin şəkildə zərər gördü. ABŞ-da onsuz da sosial narahatlıq var. Zaman içində bu növ aksiyalar baş qaldırır. Bunun içində bir sıra parametrlər var. Bunlardan biri də pandemiyadan Amerika xalqının son dərəcə ağır zərər görmüş olmasıdır. Ölkədə 1% elit, 20% orta təbəqə pandemiyadan zərər görmədi. 80% insan isə böyük çətinliklərlə üz-üzə qaldı. Pandemiyadan ölənlərin əksəriyyətinin qaradərili və latın amerikalı olması ölkədə bərabərsizlik, siyasi gərginlik, etibarsızlıq və qeyri-müəyyənlik problemlərini göz önünə sərdi". Ağır bildirib ki, ABŞ hökuməti hazırda olduqca gərgindir: "Trampın çıxıb "əgər yağmalama artarsa, silahlar açılacaq" tərzdə açıqlama verməsi ABŞ dövlətinin nə qədər gərgin olduğunu göstərir. Heç bir dövlət vətəndaşını təhdid etməz. Dövlət lazım görsə, silahlı müdaxilə edə bilər, amma vətəndaşını təhdid etməz". Mütəxəssisin sözlərinə görə, polisin şiddəti vətəndaşın müqavimətini daha da sərtləşdirə bilər.

# Sevil Mikayılova: Faşizmin təzahürləri artıq Ermənistanın siyasi həyatında norma kimi qəbul olunur

***Beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe nümayiş etdirməsi beynəlxalq təhlükəsizliyin bərqərar olmasında mühüm dönüş ola bilər. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib.***



Sevil Mikayılova bildirib ki, Prezident İlham Əliyevin uzun illərdən bəri Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın təcavüzkar siyasəti ilə bağlı həqiqətləri yüksək tribunalardan səsləndirməsi, eləcə də bu istiqamətdə dövlətimiz tərəfindən aparılan məqsədyönlü fəaliyyət dünya birliyində obyektiv fikir formalaşdırıb: "Məhz buna görə də bu gün beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Xüsusilə, son zamanlar beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsi və onun ətrafında baş verən proseslərlə bağlı yaydığı bəyanatlar bütün dünyada separatizm meyillərinin birmənalı şəkildə pisləndiyini, təcavüzkar siyasətin ikrah doğurduğunu və regionda sülhə real təhdid yaratmasının narahatlıqla qarşılandığını aydın göstərir.

Məhz cənab Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar veriblər. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir".

Ermənistan daxilində siyasi uğursuzluğa uğrayan baş nazir Nikol Paşinyan ölkədə faşizm və millətçilik meyillərinin təbliğ olunması istiqamətində utancverici fəaliyyəti ilə artıq gündəmdədir. Faşist Njdeyə 6 metrlik abidənin ucaldılması və faşizm üzərində Qələbənin 75 illik yubileyi günündə bu abidə önünə əklil qoyulması, heç sözsüz, Ermənistandakı siyasi rejimin əsl mahiyyətini olduğu kimi göstərir.

Deputat qeyd edib ki, terroru və faşizmi dövlət səviyyəsində dəstəkləyən bir ölkə, şübhəsiz, nəinki region, həm də dünya üçün təhdiddir: "Heç təsadüfi deyil ki, faşizmin təzahürləri artıq Ermənistanın siyasi həyatında norma kimi qəbul olunur. Hətta ölkə rəhbəri Paşinyan öz faşist kökləri ilə öyünür, erməni millətçi legionunda xidmət etmiş babası ilə fəxr edir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır.

Məhz bu siyasi mühitin formalaşdığı bir dönəmdə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində beynəlxalq birliyin çevik addımları dünyada sülhə və təhlükəsizliyə verəcəyi böyük töhfə olacaq. Buna görə də təcavüzkarı adı ilə adlandırmağın, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçməsi üçün fəaliyyəti sülh və dayanıqlı həllin əldə olunması üzərində cəmləşdirməyin zamanıdır".

# Etibar Məmmədov özünü nədə günahlandırdı?

## AMİP-in liderindən ilginc etiraflar

***4 iyun hadisələrindən 27 il keçməsinə baxmayaraq, o zamankı məsuliyyət daşıyan bir sıra şəxslərin özlərini təmizə çıxarması cəhdləri hələ də mövcuddur. Lakin fakt budur ki, AXC-Müsavat cütlüyünün o zamankı "demokratik baxışları" yalnız qan-qadaya gətirib-çıxarırdı. Hazırda sözügedən hadisələrlə bağlı müxtəlif versiyalar səslənməkdədir, ancaq hakimiyyətdəkilər deyil, eyni zamanda parlamentdə təmsil olunanlar sabiq deputatlar, partiya rəhbərləri olan siyasilər də ilginc detalları açıqlamaqdadırlar.***

"Azərbaycanın dövlətçiliyində xaosa səbəb olanlar indiyə qədər də böyük əksəriyyəti məsuliyyətini etiraf etməyiblər"

Həmin vaxtlar AMİP-in sədri və millət vəkili olmuş Etibar Məmmədov da mətbuata verdiyi müsahibəsində 4 iyun hadisələri ilə bağlı maraqlı məqamlara toxunub. SİA xəbər verir ki, hazırda adıçəkilən partiyanın fəxri lideri olan Etibar Məmmədov bildirib ki, o hadisələr yalnız mənfi nəticələrə gətirib çıxarıb, ancaq o hadisəni törədənlər indiyədək də məsuliyyətlərini etiraf etməyiblər. SİTAT: "O zaman rəhbərlikdə olan insanlar, vəziyyətin o yerə gəlib çıxmasına məsuliyyət daşıyanlar və onun qarşısını almaqda acizlik göstərənlər, qanunsuz hərbi əməliyyatlar hazırlayanlar, həmin əməliyyatlar baş verəndən sonra da vəziyyətin nizamlanması üçün qanuni tədbirləri görə bilməyənlər və nəticə olaraq Azərbaycanın dövlətçiliyində xaosa səbəb olanlar indiyə qədər də böyük əksəriyyəti məsuliyyətini etiraf etməyiblər".

### "Ancaq başqalarının üzərinə böhtanlar atmaqla məşğuldurlar"



Belələrinin başqalarını ittiham etmələri iddialarına da münasibətini bildirən AMİP-in fəxri lideri bu gün də eyni addıma getdiklərini bildirib. "Ancaq başqalarının üzərinə böhtanlar atmaqla məşğuldurlar", deyən E.Məmmədova görə, yəni, qanunla məsuliyyət daşıyanlar, dövlətin və vətəndaşların təhlükəsizliyinə görə məsul olan vəzifəli şəxslər olub: "Təbii ki, qanunu pozanlar da olub, tabeçilik göstərməyənlər də olub. Məsələnin həlli üçün qanuni üsullardan istifadə edilməyib, yalnış yol seçilib və nəticədə də həmin vəziyyət yaranıb".

### "Hadisələrin baş verməsinə görə məsuliyyət daşıdıqlarını etiraf etməlidirlər"

E.Məmmədov həmçinin bildirib ki, onu tərəf tutmaqda günahlandıran o zamankı hakimiyyət - cəbhə nümayəndələri ciddi şəkildə yanılırlar.

"Bu günə qədər bir sözümü, ya cümləmi tapsınlar ki, mən kimisə dəstəkləmişəm", deyən AMİP təmsilçisi o vaxtkı tələbini də xatırladıb: "Mənim tələbim yalnız o olub ki, məsul şəxslər izahat verməlidirlər və hadisələrin baş verməsinə görə məsuliyyət daşıdıqlarını etiraf etməlidirlər. Onlar da uzun müddət bu hadisələrdən əvvəlcədən xəbərlərinin olmadığını bildiriblər. Yalnız iki il bundan əvvəl onlardan bəziləri etiraf etməyə başladılar ki, bu, əvvəlcədən hazırlanmış əməliyyat olub, onlar onun hazırlanmasında iştrirak ediblər və hamının da bundan xəbəri olub. Halbuki həmin dövrdə məsuliyyət üzərinə düşən şəxslər var idi və onlar birinci xalqa izahat verməli idilər ki, nə baş verir, xalqa müraciət etməli idilər və hər şeyi açıqaydın bildirməli idilər".

### "Pənah Hüseynə bildirmişəm ki, bunu etmək olmaz, nəticəsi sizin üçün pis olacaq"

E.Məmmədov hesab edir ki, vəziyyət qarışarkən, bu problemin həllinin qanuni məkanı Milli Məclis idi: "Hadisələr barədə MM-ə məlumat verib məsələlərin orada müzakirə edilməsinə şərait yaratmalı idilər. Onlar isə əksinə, hər şeyi gizlətməyə, məsuliyyəti boyunlarından atmağa başladılar".

AMİP təmsilçisi o zamankı prezident Əbülfəz Elçibəyi və ətrafındakı komandasının birmənalı olaraq məsuliyyət daşıdıqlarına eyham vuraraq onu da bildirib ki, prezidentdən tutmuş nazirlərə qədər hamısı dedi ki, mənim xəbərim yoxdur. O, eyni zamankı baş nazir, hazırda AXP-nin sədri olan Pənah Hüseyni də ittiham edib və günahlarını başqalarının üzərinə atmamalarına çağırıb: "Ona görə də onların kimisə ittiham etməyə haqları çatmır. Necə olur ki, mənim xəbərim olur o əməliyyatın hazırlanmasından, onların xəbəri olmur? İyunun 2-də baş nazir Pənah Hüseynə bildirmişəm ki, bunu etmək olmaz, nəticəsi sizin üçün pis olacaq. Sonra da gəlib Milli Məclisdə çıxış edərək bildirmişəm ki, ayın 4-ə belə bir əməliyyat hazırlanır. Bunu da etmək olmazdı".

### "Gərək onu gözləməyəy dim..."

"Əgər mənə də bu informasiya çatmışdısa, deməli, hücum etdikləri tərəfdə də o informasiya olub, bunun üçün onların da hazırlığı olub", deyən E.Məmmədov bu əməliyyatın gizlilikdən çıxdığını da deyib və nəticəsinin də belə olacağı haqqında iyunun 2-də MM-də xəbərdarlıq etdiyini xatırladıb. Ancaq göründüyü kimi, nəticə çıxarmaq yerinə onlar qardaş qırğınına gediblər, bu gün də öz günahlarını ittiham şəklində digərlərinin üzərinə yıxırlar: "İndi onlar nəticə çıxarmayıblar, ona görə də heç kəsi ittiham etməyə haqları da yoxdur. Bir sözlə, bacarıqsızlıq və səriştəsizlik göstəriblər. Nəticədə də ölkədə xaos yaranıb. Ona görə də 4 İyun hadisələri Azərbaycanın dövlətçiliyinə də, inkişafına da çox böyük zərbə olub".

AMİP-in lideri öz səhfini də etiraf edib və bildirib ki, o gözləmə mövqeyi tutduğuna görə özünü də günahlandırır: "Bu problemin həlli ilə bağlı mən bir müddət gözlədim ki, gərək mənə nə zaman müraciət edəcəklər. Gərək onu gözləməyəydim, dərhal özüm prezidentlə əlaqəyə girəydim. Lakin prezident də hadisədən sonra, iyunun 8-də mənimlə əlaqə saxalyıb. Bəlkə də mən özüm vaxtında təşəbbüs göstərməli idim".

Nəticə etibarı ilə mövcud müxalifətin - o zamankı AXC-Müsavat cütlüyünün təmsil olunduğu hakimiyyətin bu gün də həmin illərdəki kimi davrandıqlarını deyən E.Məmmədov belələrinin heç vaxt dəyişməyəcəklərini dolayısı ilə ifadə edib: "Lakin onu da deyim ki, vəzifəli şəxsin məsuliyyəti başqadı, qeyri-rəsmi şəxsin məsuliyyəti başqadı. Ona görə də bunlar elə 30 ildi eyni havanı çalıb-oynayırlar, hələ də yorulmurlar".

**Rövşən RƏSULOV**

# Müxalifət ciddi fəlakət astanasındadır

***Radikal müxalifət ciddi siyasi fəaliyyət ilə məşğul deyil. Demək olar ki, bu gün radikal müxalifətin əsas fəaliyyəti ancaq ağa qara demək və Azərbaycanı istəməyən qüvvələrin dəyirmanına su tökməkdən ibarətdir. Məhz radikal müxalifət təmsilçiləri bu cür hərəkətlər etməsidir ki, onlar cəmiyyətin gözündən tamamilə salıb. Bunu SİA-ya açıqlamasında "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov deyib.***

Məsələ ilə bağlı fikirlərini bölüşən "Azadlıq Hərəkatçıları" Birliyinin sədri qeyd edib ki, yerli və xarici maraqlı dairələr Azərbaycan dövlətinin inkişafından qısqanclıq hissi keçirirlər: "Müxalifət öz maraqları üçün çalışır ki, boş qalan ciblərini doldura bilsin. Hay-küyləri mənasızdır. Onlar əslində bir siyasətçi kimi özlərini təsdiq etməyiblər. Anormal addımları meydanlarda atılıb düşən, siyasətlə məşğul olmaq imitasiyası yaradan adamlardır. Əslində siyasətlə məşğul olmaq, siyasətçi olmaq, siyasi fəaliyyətlə məşğul olmaq tamam başqa bir anlayışdır. Bu siyasi nəzəriyyələri əgər onlar bilmirlərsə siyasi nəzəriyyələrə müraciət etsinlər və baxsınlar. O elimi mənbələrdə bunun açıqlaması göstərilir. Bunların məşğul olduqları tamamilə ilə başqa bir şeydir".



T.Novruzovun sözlərinə görə, müxalifətin məşğul olduğu siyasət deyil: "Görünür onların əlində başqa iş gəlmir. Bu illər ərzində yalnız asan fəaliyyət yolu seçiblər özləri üçün. İqtidarın gördüyü böyük, möhtəşəm işlərə qara yaxmaq, şər-böhtan yağdırmaq və bununla da xaricdə kimlərinsə diqqətini cəlb etmək, gündəmdə qalmaq və belə də yaşamaq onların əsas fəaliyyətləridir. Ümumiyyətlə, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtısa onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifəti qara günlər gözləyir. Onlar öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni, müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. O cümlədən də, müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalar ortaya konkret ideya qoya bilmirlər. Onların ortaya nə isə ideya qoya bilməməklərinin səbəbi odur ki, bu partiyaların əksəriyyəti hansısa ideologiya əsasında formalaşan partiyalar deyil. Həmin partiyalar ayrı-ayrı şəxslər ətrafında formalaşaraq fəaliyyət göstərirlər. Belə olan halda da, sözügedən partiyaların iş fəaliyyəti də həmin şəxslərin şəxsi maraqlarına yönəlir".

O, əlavə edib ki, müxalifət partiya rəhbərlərinin arasında gedən dava-dalaş xarici maddi yardımları ələ etmək üzərində qurulub: "Təbii ki, bu gün müxalifətin var olması cəmiyyət üçün maraqlı deyil. Bugünkü müxalifətin bu cür çıxılmaz bir vəziyyətə düşməsinin, zəifləməsinin də səbəbi məhz müxalifətin yersiz hərəkətləri, və şəxsi ambisiyalarının olması ilə bağlıdır. Demək olar ki, bu gün müxalifət partiyalarının var olub-olmamasının cəmiyyət üçün heç bir isti soyuqluğu yoxdur. Müxalifətin bundan başqa sonu ola bilərmi? Yəni, bu müxalifətin sonu deməkdir. Bu baxımdan, yaxış olardı ki, müxalifət partiya rəhbərləri papaqlarını qarşılarına qoyub düşünsünlər ki, müxalifətin bu cür çıxılmaz vəziyyətdən necə çıxaraq. Yəni, biri-birini öz düşərgələrində sıradan çıxarmaq yox müxalifətin partiyalarında olan problemlərin həllinə çalışmalıdırlar. Əks təqdirdə müxalifət partiyaları tamamilə mövcudluqlarını itirəcəklər".

**Gülyana**

# Keçmiş məhkum 5 kiloqramlıq narkotiklə tutuldu



Kultivasiya yolu ilə yetişdirilmiş 100 ədəd çətənə kolu və 5 kiloqramdan artıq marixuana aşkar edilərək götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xəzər RPİ əməkdaşlarının daxil olmuş məlumat əsasında Türkan qəsəbə sakini, əvvəllər məhkum olunmuş İ.Əliyevin yardımçı təsərrüfatında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan kultivasiya yolu ilə yetişdirilmiş 100 ədəd çətənə kolu və 5 kiloqramdan artıq marixuana aşkar edilərək götürülüb.

# Evlərdən və kafedən oğurluq edənlər yaxalanıblar

Bakıda və Biləsuvarda oğurluqla məşğul olan şəxslər yaxalanıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 2-də Sabunçu rayonu ərazisindəki kafelərin birindən dörd ədəd soyuducu və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri R.Tağıyev və əvvəllər məhkum olunmuş T.Musayev rayon polis idarəsinin 15-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Oğurluq etdiyinə görə tutulmuş R.Muradovun ətrafında Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsi əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki üç evdən 500 manat, iki ədəd velosiped və məişət əşyaları, habelə bir yardımçı təsərrüfatdan dörd qoyun oğurlaması da müəyyənləşdirilib.

Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 2-də rayondakı anbarların birindən beş nəfərə məxsus ümumilikdə 17 min 800 manat dəyərində kosmetik və gigiyenik əşyalar oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini G.Məmmədova, Biləsuvar rayon sakinləri M.Nərimanov və B.Həsənov tutulublar. Faktlarla bağlı təhqiqat aparılır.

# Samtsxe-Cavaxetiyada idarəçilikdən ermənilər narazıdırlar

***Samtsxe-Cavaxetiya, kommunist nomenklaturasının xüsusilə təyin olunmuş qeyri-köklü rəhbərləri yuxarıdan "rəhbərlik" edərkən gürcülər idarəçilikdən geri qalırdı. Ermənilər isə yerlərdə heç vaxt qalmamışlar. Müxtəlif çirkin fırıldaqçılıqlardan, mənzillərin satışından, gəlirli vəzifələrdən, partiyaya daxil olma anketlərindən və böyük kapitalın toplanmasından sonra Tbilisidə prestijli mənzillər alaraq yenidən nomenklatura vəzifələrinə keçmişlər. Erməni rəhbərləri məhz bu cür idilər, o fərqlə ki onlar hətta daimi yaşayış üçün İrəvana köçərək yüksək vəzifələrdə işləməyə başlamışdılar.***

Gürcü çarları və patriarxları Samtsxe-Cavaxetiyanın onların idarəçiliyində olduğunu hesab edərək onu dirçəltmək üçün əllərindən gələni edirdilər. Hazırda bu regionda yerli idarəçiliyin dövlət strukturlarındakı yerli hakimiyyəti azdır. Əsasən Tbilisi erməniləri vəzifədədirlər. Lakin məlumdur ki, yerli insanlar öz tarixlərini, ənənələrini, hüquqlarını və yazılmamış qanunlarını daha yaxşı bilirlər.

Gürcüstanın patriarxı katalikos II İlya Samtsxe-Cavaxetiyada bir neçə dəfə olmuş və orada onun tərəfindən ciddi addımlar atılmışdır: o, Taparavani gölü yaxınlığında ziyarətgah tikdirmiş və ucaltmış; Müqəddəs Ninonun gəlməsinin simvolu kimi "üzüm tənəyindən xaç" qoydurmuş; Safari monastırının yaxınlığındakı bir neçə kənddə mənəvi seminariya yaratmışdır, harda ki bu mümkün idi; o cümlədən kilsələri bərpa etmişdir. O, həmçinin Ahalsıxda mövcud olan Samtsxe-Cavaxetiyanın kilsə-inzibati mərkəzini - yepiskopluğunu möhkəmləndirmişdir. Katolikos - patriarx gürcü əhalisinin mənəvi ənənələrinin bərpası üçün bundan sonra da hər şeyi etməlidir. Gürcüstanın bəzi kəndlərində monastr kilsələri dağıdılmışdır. Onları bərpa etmək üçün bütün qayğılar göstərilmişdir. Yerli əhalinin isə bu baxımdan maddi imkanları yoxdur. Məsələn, faktiki olaraq Ptena kəndində Müqəddəs Georgi kilsəsi dağıdılmışdır. Onun bərpasına isə 90-cı illərdən başlanılmışdır, lakin sonra məlum hallardan sonra bu proses dayandırılmış və bu günə qədər də başa çatmamışdır.

Gürcüstan hökuməti və bütün gürcü xalqı Acarıstan respublikasında yaşayan ekoloji mühacirlərə və yerli gürcü əhalisinə mənəvi dəstək verməlidir. Bu bölgədə sakinlər üçün evlərin tikintisini başa çatdırmaq lazımdır. Müvafiq məktəblər, klublar, kitabxanalar, tibbi ambulatoriyalar, içməli sular və hamamlar isə hələ də yoxdur. Samtsxe-Cavaxetiyada demoqrafik proseslərin tənzimlənməsi yerli hökumətin nəzarəti altında olmalıdır. Gürcüstan və Acarıstan muxtar respublikasının rəhbərliyi Samtsxe-Cavaxetiyada gürcü əhalisinin ekoloji miqrasiyanın əsaslandırılması üçün əllərindən gələni etməlidirlər.

Yenə də Samtsxe-Cavaxetiyaya başqa bölgələrdən gürcü əhalisinin köçürülməsi prosesini davam etdirmək lazımdır. Lakin köçürülənlərin sayı yerli sakinlərin sayından çox olmamalıdır. Cavaxetiyadan getmiş gürcülərin qismən geri qaytarılmasını məqsədəuyğun hesab edirik, əgər dövlətlər lazımi diqqəti və qayğını göstərsələr, bir çox yerli cavaxetiyalılar öz ata-baba yurdlarına məmnuniyyətlə yenidən qayıdarlar.

Cavaxetiyada, əhalisi 1944-cü ildə zorla Okami kəndinə köçürülmüş gürcülərə məxsus tarixi Kilda kəndini bərpa etmək lazımdır. Kildanın əhalisi dəfələrlə Sovet və partiya orqanları qarşısında onların doğma kəndinə qayıtmaları barəsində məsələ qaldırsalar da, onların bu təklifi hər zaman rədd edilmişdir. Kildanın əhalisi isə Okami kəndinə uyğunlaşa bilmədikləri üçün Qamardjveba kəndinə köçmüşlər.

10. Sığınacaqlarda yaşayan Gürcüstanın Cavaxetiya kəndlərinin (Qoqaşeni, Pteni, Çunçxa, Koteliya və s.) sakinləri üçün (250-dən çox ailə) lazımi vəsait ayırmalı və onlar üçün yeni evlər tikilməlidir. Gürcüstan kəndlərinin bərpası - dirçəlişi üçün Gürcüstanın iş adamları, dövlət sənayesi eləcə də özəl şirkətlər tərəfindən sponsorluq edilməlidir. Cavaxetiyanın erməni kəndləri gürcü kəndlərinə nisbətən yaxşı vəziyyətdədir. Kumurdo kəndində "prezident bulağı"nın olması eləcə də erməni məktəblərinə yardımın göstərilməsi təqdirəlayiq hesab olunur. Ancaq ilk növbədə, qeyd etmək lazımdır ki ən ağır vəziyyətdə olan kənd və məktəblər də böyük diqqət tələb edir. Unutmayaq ki Axalkələk rayonunun mərkəzində artıq on illərdir ki gürcü məktəbləri1 dağıdılmış vəziyyətdə qalmaqdadır.

11. Cavaxetiya regionunun gürcü məktəbləri xüsusi diqqət tələb edir çünki belə bir hal təhsillə yanaşı milli gərginliyə də səbəb olan amillərdəndir.

Gürcü məktəblərinə qarşı daşnakların hər bir təxribatçılıq fəaliyyətinin təkrarlanmasına qarşı hökumət tərəfindən sərt reaksiya verilməlidir. 1997-ci ildə milliyyətcə erməni olan təhsil şöbəsinin müdiri heç bir əsası olmadan metodist K. Potsxeraşvilini vəzifəsindən azad etmişdir. Sameba kəndində isə daşnak partiyasının üzvü, kolxoz sədri Tumasyan silahla gürcü müəllimlərini hədələyərək onların dərs keçmələrinə imkan verməmişdir. Gürcüstanın Cavaxetiyadakı məktəbləri gürcü dilinin və dininin mənbəyidir. Ona görə də islahat ilə əlaqədar olaraq məktəblərin sayı azaldılmamalıdır, əks halda isə bu mütləq gürcü əhalisinin miqrasiyasına səbəb olacaqdır. Biz bu məsələni milli dövlət siyasəti səviyyəsinə qaldırmağın vacib olduğunu qeyd etmək istəyirik.

Gürcüstanın bütün vətəndaşlarının dövlət dilini - gürcü dilini, Gürcüstanın tarixini bilmələri və Gürcüstanın ordusunda xidmət etmələri məcburidir.

1829-1831-ci illərdə Artaan vilayətindən (Veli kəndi) Axalkələk kəndlərinə köçürülmüş gürcü katolikləri (Bavridə, Qulikamidə, Kartikamidə, Turtsxidə, Xulqumoda) xüsusi diqqət tələb edirlər. Onları fransızlar ("ferenq") adlandırırlar. Onların gürcü soyadları da var: Aslanati (Aslanişvili), İqitxanati (İqitxanaşvili), Eliyan (Eliadze), Berukyan (Berikaşvili), Xutsiyan (Xutsişvili) və s. Bu insanlar lap əvvəldən əminliklə qeyd edirlər ki, gürcü katolikləri heç vaxt mövcud olmamışdır və Gürcüstanda yaşayan bütün katoliklər ermənidirlər. Ona görə də onlar tədricən ermənipərəst olmuşlar. 30-40-cı illərdə onların gənclərinin müəyyən bir hissəsi Axalkələkin orta məktəblərində təhsil alsalar da, bu gün Xulqumo kəndində yaşayan Turxanovlar ailəsinin övladları Gürcüstan məktəbində təhsil alırlar.

1980-ci ilin məlumatına əsasən, Xulqumoda 227 ailə, Kartikada - 440, Bavrada - 276, Turtsxidə-453 olmaqla cəmi 1347 ailə və 6447 səfir var idi. Nüfuzlu hökumət komissiyası yaradılmalıdır ki, bu komissiya da öz növbəsində sənədlərin və sorğu-sualın əsasında onları gürcü etnosuna qaytaracaqdır. Bu isə həqiqətən də ədalətli və obyektiv bir qərardır. 14. 50-ci illərdə kolxozların genişləndirilməsi və onların bazasında sovxozların yaradılması, Cavaxetiyanın kənd əhalisinin təbii pul ödənişinin dəyişdirilməsi ilə nəticələndi. Aşağı ödəniş isə maddi istehsal sahəsində işçilərin kəskin şəkildə azalmasına səbəb oldu.

Nəticədə, gəncləri yerində saxlamaq mümkün olmadı və yerli gürcü əhalisinin miqrasiyası başladı. Bu vaxt azsaylı gürcü kəndləri (Qoqaşeni, Okami, Azmana, Ptena, Çunçxa və Kotelia) boşalmışdı.

Yerli və Acariyadan köçüb gəlmiş yerlərin möhkəmləndirilməsi üçün iş yerlərinin yaradılmasının - ənənəvi gürcü və sənətkarlıq istehsalının (xalçaların toxunması, metal, taxta və gil məmulatlarının istehsalı) bərpa olunmasının mühüm olduğunu hesab edirik. Gürcü əhalisinin əməyindən yerli xammalın emalı üçün istifadə olunmalıdır (tikinti daşları müəssisəsi, Okamda pemza yataqları və s.). Cavaxetiya tikinti daşları yataqları ilə zəngindir. Məlum hadisələr zamanı fiziki şəxslər daş yataqlarını amansızcasına məhv etmiş və Gürcüstan torpağına böyük ziyan vurmuşlar (der. Çunçxa, Ktena və s.). Üzlük daşlarının böyük bir hissəsi çıxarılmaqla bu gündə ixrac olunur (güman ki Rusiyaya). Müvafiq inzibati və nəzarət qurumları bu işdə qayda-qanun yaratmalıdırlar ki, bu da öz-özlüyündə büdcənin doldurulmasının əhəmiyyətli şəkildə mənbəyi olacaqdır. Kənd təsərrüfatının ənənəvi sahələrinin (heyvandarlıq, taxıl və soya istehsalı, arıçılıq) bərpasına və dirçəlməsinə xüsusi diqqət yetirilməlidir. Gürcüstan kəndlərində kolxozların əsassız şəkildə ləğv edilməsi nəticəsində heyvandarlıq fermaları məhv edilmişdir. Məsələn, 80-ci illərdə Ptena kəndində müasir heyvandarlıq kompleksi tikilmişdir, lakin hazırda isə qarət edilmiş vəziyyətdədir. Sakinlərə ayrılmış torpaq sahələri işlənmir. Təxirəsalınmaz vəzifə kimi Gürcüstan kəndlərində fermer təsərrüfatının bərpası, eləcə də taxılçılıq, bitkiçilik və heyvandarlıq sahəsində icarə formalarının inkişaf etdirilməsinin vacibliyini qeyd etmək istəyirik. Soya bitkilərinin böyük bir inkişafı ilə yerlərdə kiçik yağ istehsalı müəssisələri yaranacaqdır.

Son vaxtlara qədər Axalkələk rayonunda 18 kolxoz və 24 sovxoz, Ninotsminda da isə 24 kolxoz və 5 sovxoz var idi. 1985-1987-ci illərdə Cavaxetiyada istehsal olunan kolxoz və sovxozların məhsulu belə görünürdü: bitkiçilik məhsullarının payı 30%-i, heyvandarlığın payı 70%-i, onların arasında iri buynuzlu mal-qaranın payı isə 60%-dən çox idi.

1990-cı ildə Cavaxetiyada cəmi 82489 ( Ninotsmindada - 40342, Axalkələkdə - 42147) baş iribuynuzlu mal-qara olmuş, bunlardan isə 34939 başı (Ninotsmindada - 16915, Axalkələkdə - 18024 ) inək olmaqla 42.3 faizi təşkil etmişlər.

1986-cı ildə 1976-cı illə müqayisədə Axalkələk rayonundakı ictimai təsərrüfatlarda süd istehsalının, canlı çəkinin artırılması müvafiq olaraq 24,0 və 43,8 faiz, Ninotsminda rayonunda isə 39,7 və 49,4 faiz təşkil etmişdir.

1976-1986-cı illərdə ət istehsalı işində iribuynuzlu mal-qaranın xüsusi çəkisi 68,2-dən 71,8 faizə qədər yüksəlmişdir. Kolxozlardakı bir inəyin orta sağımı 2400 kq-a qədər, sovxozlarda isə - 2000 kiloqram olduğu halda qabaqcıl kolxozlarda bu göstərici 3000-3300 kiloqrama çatmışdır. Bu dövrdə 100 inəkdən 76-80-ə qədər buzov artımı müşahidə olunmuşdur. Yuxarıda qeyd olunan məlumatlar göstərir ki, Cavaxetiyada ət və süd istehsalı sahəsində artım üçün böyük imkanlar var.

Professor O. Maqlaperidzenin hesablamalarına görə, mövcud ehtiyatlardan lazımi qaydada istifadə edilməsi əsasında ictimai təsərrüfatlarda süd istehsalı 2005-ci ilə qədər iki dəfə artacaq, canlı çəkisinin artırılması isə 1,5 dəfə3 artacaq.

Sovet ittifaqı dağılandan sonra bütün Gürcüstanda və Cavaxetiyada çoxlu ictimai təsərrüfatlar talan edilmiş və məhv edilmişdir. Ermənistana böyük miqdarda iribuynuzlu mal-qara gətirilmişdir. Bütün bunlar isə Cavaxetiya əhalisinin sosial problemlərini daha da çətinləşdirmişdir.

Cavaxetiyada sosial infrastrukturun inkişafına böyük diqqət göstərilməlidir. Bizə məlum olan siyasi hallara görə onsuz da zəif olan infrastruktur dağılmış vəziyyətdədir. 1990-cı ilə qədər Ninotsminda rayonunda 91 ticarət obyekti olmuşdur. 39 məktəblərində 5547 uşaq təhsil almış, 32 kəndin rayonlararası rabitəsinin sayı isə yalnız 12 olmuşdur.

Axalkələk rayonunda cəmi 227 ticarət obyekti olmuşdur. Rayonun 64 məktəbində 2079 uşaq oxuyurdu, bu məktəblərdən 9-u gürcü məktəblərindən ibarət idi harda ki 500 şagird təhsil alırdı. Rayonun yalnız üç kəndindəki 30 xəstəxana yerinin hər birində xəstəxanalar (Alastani, Baraleti, Sulda) var. Kiçik istehsal müəssisələrinin və məişət obyektlərinin sayı 36 olmuşdur. Rayonlararası avtomobil rabitəsi 63 kəndin 51-də olmamışdır. Telefon rabitəsi isə 16 kənddə olmamışdır.

Axalkələk rayonunda rayonlararası kənd yollarının uzunluğu 273 kilometrdən ibarətdir ki onların arasında da 256 kilometr uzunluğu olan yol möhkəmdir, bununla yanaşı isə torpaq yollarının uzunluğu 4,4 km, asfalt yollarının uzunluğu isə 12,6 kilometrdir. Kəndlərdə ticarət və məişət xidməti məntəqələri fəaliyyət göstərmir.

Ermənistanın nə təbii sərvəti nə də ki dəniz yolu yoxdur. O, faktiki olaraq "blokada" halındadır. Nəzərə alsaq ki, lazımi xammal, enerji resursları, məhsullar, sənaye malları Rusiyadan alınır və bu yükü həyata keçirmək üçün də yeganə yol Gürcüstandır, onda Ermənistanın Gürcüstandakı bu cür marağı aydın olur. Erməni kapitalı Gürcüstana daxil olmağa çalışaraq özəl mülkləri satın almağa çalışır. Amerikada yaşayan ermənilərin Poti limanının səhmdarlığı ilə əlaqədar fəallığı buna əyani şəkildə sübutdur. Hələ Sovet İttifaqı dövründə ermənilərin bir qismi Moskvada yüksək vəzifələrdə olmuş, Batuminin onlara verilməsi məsələsini dəfələrlə qaldırmışlar. Ermənilərin işgüzar dairələri Axalkələk - Batumi dəmir yolunu və s. ələ keçirməyə çalışırlar. Qeyd etmək lazımdır ki, 1997-ci ilin noyabrında Gürcüstanda səfərdə olan Ermənistanın sabiq baş naziri daha sonra isə prezidenti olmuş Robert Koçaryan fikrini bu cür ifadə etmişdir: "Ermənistan dənizə çıxışının olmasında maraqlıdır. Bu, Ermənistan üçün Avropaya yol açır, ona görə də biz bütün imkanları araşdıracağıq, onların arasında isə həm bərə dəmir yolu həm də avtomobil yolları4 var...".

18. Gürcüstanın kütləvi informasiya vasitələri, məsələn, İlya Çavçavadze, Akakiya Tsereteli, Vaja Pşavela, Yakoba Qoqebaşvili, Arçila Corcadze, İvane Cavaxişvili, Pavle İnqorokva, Gerontiya Kikodze və s. gürcülərin əleyhinə olan Şaxatunyan, Ter-Abramyan, Naxapetyan, Eritsov, Artsrun, Vermişov, Babaxanyan və s. kimilərinə qarşı prinsipial mövqe tutmalıdırlar. Belə bir məqamda prinsipsizlik və əsassız güzəştlər xəyanət sayılır, xüsusən də Gürcüstanın milləti qarşısında böyük bir cinayətdir. Bu cür siyasət erməni ultrasiyasətçilərinin gürcülərin əleyhinə yönəlmiş fəallığına da daha çox kömək edir, Gürcüstan və Ermənistanın isə mehriban qonşuluq münasibətlərinə ciddi ziyan vurur.

Təəssüflər olsun ki bu gündə kilsə və "elmi xadimlər" tərəfindən gürcülərə qarşı nifrət və əsassız ərazi iddiaları, Gürcüstanın tarixinin və mədəniyyətinin saxtalaşdırılması hökm sürməkdədir. Belə bir mərhələdə isə biz əfvsiz şəkildə bu cür şeytani xislətli siyasi qüvvələri ifşa etməliyik.

Xaricdə yaşayan alim M. Sarkisyan fikrini bu cür qeyd etmişdir: "Əsl erməni və əsl gürcü anlamalıdır ki, "xalqın xatirəsi yalnız tarixi hekayələrlə və sənədlərlə məhdudlaşmır." Xatirə əsrlərlə və minilliklərlə ötürülür. Bu isə erməni və gürcü xalqlarının dostluğunun heç vaxt ləkələnməməsinin sübutudur".

Yeni nəslin yetişdirilməsi üçün çox əhəmiyyətli olan qədim erməni əlyazmaları eləcə də Kartlidəki həyat, millətlərimizin həyat və mübarizəsinin əsl sənədi və təsdiqidir. Tarix insana necə dostluq etməyi öyrədir, eləcə də onu göstərir ki ən dəhşətli dəqiqələrdə belə xarici işğalçılara qarşı mübarizənin ən güclü silahı bizim dostluğumuz olmuşdur.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

5 iyun

# Göz üçün faydalı olan qidalar



Həyatın gözəlliklərini görmək və ondan zövq almaq gözlər vasitəsilə mümkündür. Ona görə də gözləri qorumaq ən vacib sağlamlıq şərtlərindən biridir. Bakı Baş Səhiyyə İdarəsinin baş oftalmoloqu Sevda Bəşirova AZƏRTAC-a deyib: "Bəzi meyvə və tərəvəzlər görmə qabiliyyətini gücləndirir. Məsələn, özündə S vitamini ehtiva edən itburnu gözün qan dövranını yaxşılaşdırır. A, B, S vitaminləri ilə zəngin olan cəfəri isə göz yorğunluğunu azaltmaq üçün ideal vasitədir.

Bibər, limon və narıncı rəngdə olan meyvə-tərəvəzlərdəki S vitamini gözün tonusunu, yorğunluğunu aradan qaldırır. Omeqa-3 və Omeqa-6 vitaminləri ilə zəngin olan balıq da görmə qabiliyyətini gücləndirir".

Həkim-oftalmoloqun dediyinə görə, bibər, kivi və ispanaq da göz üçün faydalı olan qidalar sayılır: "Şirin bibər göz damarlarının tonusunu normalaşdırır. S və E vitaminləri ilə zəngin olan kivi torlu qişaya müsbət təsir göstərir. Adətən immun çatışmazlığı zamanı axşam vaxtı zəifgörmə baş verir və ona "toyuq korluğu" deyilir. Kalium bədəndən suyun xaric olmasına kömək edir və bu zaman göz təzyiqi azalmış olur. İspanaq gözün görmə qabiliyyətini yaxşılaşdıran bütün komponentlər, o cümlədən beta-karotin və müxtəlif mineralları özündə cəmləşdirir.

# "Tallison "Neftçi"nin təklifindən heç cür imtina edə bilməzdi"

***Braziliyanın "Quarani" klubunun baş meneceri Mişel Alves müdafiəçi Tallison Auqustonun "Neftçi"yə transferi haqda danışıb. Belə ki, klub rəsmisi "Correio"ya açıqlamasında 29 yaşlı müdafiəçinin Azərbaycandan cəlbedici təklif aldığını deyib: "O, heç cür bundan imtina edə bilməzdi. Tallisona apreldə başa çatan müqaviləni yeniləməyi təklif etdik. Lakin onu saxlamağımız mümkünsüz idi".***

Alves klubunun Talisson uğrunda rəqabətdə "Neftçi"yə uduzduğunu bildirib:"Tallisonun özü ilə bu barədə söhbətim olub. Mənə dedi ki, Azərbaycandan gələn təklifə "yox" deyə bilməz. Həm "Quarani" bu şərtlərlə rəqabət edə bilmədi. Buna görə futbolçu bizimlə vidalaşaraq Avropaya yollanmaq qərarına gəldi". Qeyd edək ki, Tallisonun "Neftçi" ilə 3 illik müqavilə imzalayacağı deyilir.



# "Çelsi" 25 yaşlı futbolçusunu "Atalanta"ya satdı

"Atalanta" komandada icarə əsasında çıxış edən "Çelsi"nin futbolçusu Mario Paşaliçi birdəfəlik transfer edib. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, xorvatiyalı yarımmüdafiəçi üçün London klubuna 15 milyon avro ödənilib. Onunla 5 illik müqavilə imzalandığı bildirilir. Qeyd edək ki, 25 yaşlı futbolçu 2018-ci ildən "Atalanta"da çıxış edir. O, bu mövsüm 32 oyuna 7 qol vurub, 7 məhsuldar ötürmə edib.



# Koronavirusa yoluxmada daha həssas olan qan qrupu hansıdır?



Alimlər təxminən iki min koronavirus daşıyıcısının genetik məlumatlarının təhlil etdikdən sonra II qan qrupu daşıyıcılarının yeni növ koronavirusa daha həssas olduqlarını müəyyən ediblər. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, tədqiqatın ilkin nəticələri medRxiv elektron elmi kitabxanasında dərc olunub. Məlumata görə, alimlər artıq qan qrupunun da koronavirusa yoluxma ehtimalına təsir edə biləcəyinə dair sübutlar tapıblar. Aparılan tədqiqat bir daha təsdiq edir ki, I qan qrupu ilə müqayisədə II qan qrupöu daşıyıcılarının COVİD-19 virusuna yoluxma riski daha yüksəkdir. Alimlərin fikrincə, bu, qanda olan mutasiyaların laxtalanmanı artırması ilə bağlıdır.

Hələ cari ilin mart ayının ortlarında Çindən olan mütəxəssislər də yeni növ koronavirusa yoluxmanın təkcə yaş, xroniki xəstəliklər deyil, həm də qan qrupundan da asılı olduğunu açıqlamışdılar. Onlar tərəfindən aparılan müşahidələrdə də COVİD-19 daşıyıcısı olan xəstələrinin əskəriyyətinin II qan qrupuna aid olduğu sübut edilmişdi. Belə ki, Çində I qan qrupuna aid olan şəxslərin 30 faiz daha az, II qrupuna aid olanların isə 20 faiz daha çox koronavirus xəstəliyinə yoluxduğu qeydə alınıb.

# Dieqo Kosta haqda həbs qərarı

Vergidən yayınmaqda ittiham olunan "Atletiko"nun hücumçusu Dieqo Kostanın məhkəmə iclası olub. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, məhkəmədə 31 yaşlı futbolçu haqda 6 aylıq həbs qərarı verilib. Lakin İspaniya qanuna əsasən həbs cəzası iki ildən az olarsa, müttəhim pul cərimesi ilə azadlığa buraxıla bilər. Kosta da 540 min avro cərimə ödəyərək həbsdən azad olunacaq.

Xatırladaq ki, ispaniyalı hücumçu 2014-cü ildə imic hüquqları qazancından 1,37 milyon avro məbləğində vergidən yayınmaqda ittiham olunur.

# Lökbatanda oğurlanan "Jiquli" Xırdalanda tapıldı



Nəqliyyat vasitəsi qaçırmaqda şübhəli bilinən Sabirabad rayon sakini E.Məmmədov saxlanılıb. Daxili İşlər NazirliyindənSİA-ya verilən xəbərə görə, iyunun 1-də Qaradağ rayonunun Lökbatan qəsəbəsi ərazisindən Bakı şəhər sakini R.Şahverdizadəyə məxsus "VAZ-2107" markalı avtomobilin qaçırılması barədə 10-cu Polis Bölməsinə məlumat daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobil iyunun 2-də Xırdalan şəhəri ərazisində aşkar edilmiş və nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş E.Məmmədov saxlanılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**